www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 noyabr 2015-ci il Cümə axşamı № 257 (6285) Qiymәti 40 qәpik

**Xəbər**

## "Aztelekom" MMC-nin baş direktoru da həbs edildi

yazısı səh.2-də

**Gündəm**

### Türk generalından Azərbaycan düşmənlərinə mesaj



Rusiyalı politoloq: "Putin İŞİD-lə mübarizəyə dəstək qarşılığında Qərbdən postsovet məkanı üçün "lisenziya" alsa, Qarabağ məsələsi Kremldən daha asılı duruma düşəcək..."

yazısı səh.13-də

### Baş bankir pulların "yastıqlarda" saxlanılmasından narazıdır

yazısı səh.3-də

### İş adamının keçmiş MTN-çılər tərəfindən başına gətirilən film kimi hekayə...

yazısı səh.12-də

### 95 milyon manatlıq yeyintinin dərin izləri

yazısı səh.7-də

### Deputatın xahişini rədd edən yol polisini nə gözləyir...

yazısı səh.10-da

*Sərdar Həmidov:*

### "Eldar Mahmudovun cinayətkar şəbəkəsi təkcə iki nazirliklə məhdudlaşmır"

yazısı səh.7-də

### Bakıda holdinq rəhbəri tutuldu

yazısı səh.14-də

### Azərbaycanda məmurlar niyə gəlir deklorasiyası vermir...

yazısı səh.11-də

### Erməni işğalı Azərbaycana 818 milyard dollar ziyan vurub

yazısı səh.13-də

### İnternetsiz günlər - qəzetlərin yeri göründü...

yazısı səh.4-də

### Təyyarələr üçün yerdəki təhlükələr...

yazısı səh.15-də

### Fəhlə 6-cı mərtəbədən yıxılıb öldü

yazısı səh.14-də

**Azərbaycanın iş sektorunu çökdürən bir çetenin ağılalmaz əməlləri**

# ELDAR MAHMUDOVUN HACI MƏMMƏDOVLA ORTAQ FƏALİYYƏTİ ÜZƏ ÇIXDI - ŞOK TƏFSİLAT

MTN müəmmasında açar ola biləcək xəbər - təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da sahibkarlara "haqq qoymaq" istəyiblər; Beynəlxalq Bankın Moskva filialı Cahangir Hacıyevin rəhbərlik etdiyi dönəmdə Əfqanıstana 500 milyon dollar krediti nə məqsədlə veribmiş...




yazısı səh.8-də

## "Azərbaycana inqilab üçün 18 milyard dollar gətirilmişdi" - şok iddia

Sabiq xüsusi xidmət zabitindən sensasion müsahibə; polkovnik Tofiq Rəcəbov "Yeni Müsavat"a qan donduran açıqlamasında Mahmudov çetesinin siyasi hakimiyyəti ələ keçirmək niyyətində olduğuna dair müdhiş bilgilər verdi...

yazısı səh.5-də



*Əli Həsənov:*

### "Bu tipli fəaliyyət qanuna ziddir və birbaşa hüquqi məsuliyyət doğurur"

yazısı səh.3-də



*Aydın Mirzəzadə:*

### "Son proseslər iqtidarın siyasi cəsarətini göstərir"

yazısı səh.9-da



### Rauf Mirqədirovun məhkəmə istintaqı başladı

yazısı səh.4-də

# 19 noyabr 2015

Möhsün Pakeyin

# "Aztelekom" MMC-nin baş direktoru da həbs edildi



Məmməd Məmmədov

**"Aztelekom" MMC-nin baş direktoru Məmməd Məmmədov barəsində həbs-qətimkan tədbiri seçilib. APA-nın əldə etdiyi məlumata görə, M. Məmmədov barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

M. Məmmədov Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.

Bundan başqa, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin Nizami ATS-in rəisi Fətullah Seyidov və ATS-in mühasibi də saxlanılıb. Qeyd edək ki, bundan əvvəl "Aztelekom" MMC-nin baş mühasibi Oqtay Rüstəmov da həbs edilib. Onlar Bakı İstintaq Təcridxanasında saxlanılırlar.

# Azərbaycan hərbçilərinə könüllü təslim olmuş erməni əsgər geri qaytarılıb



**Təmas xəttini 22 mart 2015-ci il tarixdə keçən erməni əsgər dünən Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) himayəsi altında keçirilən əməliyyat zamanı geri qaytarılıb.**

BQXK-nın Azərbaycan nümayəndəliyindən APA-ya verilən məlumata görə, təhvilvermə Azərbaycanın Ağdam rayonunun Baş Qərvənd kəndi yaxınlığında baş verib.

BQXK saxlandığı dövr ərzində bu şəxsə mütəmadi olaraq baş çəkərək onun saxlanma şəraitini və onunla necə davranıldığını qiymətləndirib və ailəsi ilə əlaqə yaradılmasında yardımçı olub.

Azərbaycan tərəfinin qərarından sonra BQXK neytral vasitəçi qismində və öz mandatına uyğun olaraq və bütün tərəflərlə əməkdaşlıq şəraitində bu qaytarılmanın həyata keçirilməsinə yardımçı olub. Əməliyyatdan əvvəl BQXK-nın nümayəndələri bu hərbi əsirə baş çəkərkən o, geri dönmək arzusunu bildirib.

Cenevrə konvensiyalarına əsaslanan mandatına uyğun olaraq, BQXK Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1992-ci ildən bəri bu regionda fəaliyyət göstərir.

Qeyd edək ki, 1991-ci ildə Xocavənd rayonunda anadan olmuş, Ermənistan silahlı qüvvələrinin hərbçisi, müqavilə əsasında hərbi xidmət keçən hərbi qulluqçu Andranik Araratoviç Qriqoryan bu il martın 22-də öz hərbi hissəsini tərk edərək könüllü surətdə Azərbaycan hərbçilərinə təslim olub.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Prezidentin Fransaya işgüzar səfəri başa çatıb

## İlham Əliyev: ""İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir"

**"Əvvəlcə noyabrın 13-də Parisdə baş vermiş dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına dərin hüznlə başsağlığı vermək istəyirəm. Azərbaycan xalqı Fransa xalqının kədərini bölüşür və Fransa Respublikasının tarixində bu faciəli məqamda Fransa xalqı ilə çiyin-çiyinə dayanır".**




"Report"un məlumatına görə, bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Parisdə keçirilən UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda çıxışı zamanı bildirib.

Ölkə başçısı həmçinin çıxışında deyib: "İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir. Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməyəcəyik. Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik. Bir daha qeyd etmək istəyirəm ki, beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir. Eyni zamanda Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. "Qarabağ" sözünün mənşəyi Azərbaycana məxsusdur. Bu, Qara Bağ deməkdir, bunun erməni dilində heç bir mənası yoxdur.

Ermənilər bu ərazidə XIX əsrin ortalarında məskunlaşıblar. Çar Rusiyasının XX əsrin əvvəllərinə təsadüf edən xəritələrinə baxsanız görəcəksiniz ki, Ermənistanın bugünkü ərazisinin, bütün şəhərlərinin və kəndlərinin, bütün toponimlərinin mütləq əksəriyyətinin adları öz mənşəyini Azərbaycan dilindən götürüb"...

**Prezident həmçinin çıxışında Azərbaycanın beynəlxalq yarışmalara ev sahibliyi etməsindən, ölkənin inkişafından, UNESCO ilə sıx əməkdaşlıqdan bəhs edib:** "...Biz UNESCO-nun fəaliyyətini və baş direktoru xanım İrina Bokovanın güclü rəhbərliyini dəstəkləyirik. Azərbaycan UNESCO-ya şərəfli fəaliyyətində dəstək olmaq üçün əlindən gələni edəcəkdir. Bir daha sizi salamlamaq, sizə hörmətimi ifadə etmək və UNESCO-nun 70-ci ildönümü münasibətilə sizi təbrik etmək istəyirəm"...

Noyabrın 18-də axşam saatlarında prezidentin Fransa səfəri başa çatıb. Parisin Orli beynəlxalq aeroportunda Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Fransanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola salıblar.

# ABŞ-ın ticarət missiyasının Azərbaycana səfəri başlayıb

**ABŞ-dan olan ticarət missiyasının bu gün Azərbaycana səfəri başlayıb. ABŞ-ın Azərbaycandakı səfirliyindən APA-ya verilən məlumata görə, ABŞ Ticarət Departamenti də daxil olmaqla, 14 ABŞ şirkətinin rəsmiləri və digər yüksək vəzifəli şəxsləri yerli şirkətlər və hökumət agentlikləri ilə ticarət və biznes imkanlarını araşdırmaq və genişləndirmək üçün noyabrın 20-dək Azərbaycanda olacaqlar.**

Missiyaya ABŞ Ticarət Departamenti katibinin köməkçisinin müavini Maykl Lalli rəhbərlik edir.

Missiya ABŞ və Azərbaycan iqtisadiyyatı arasında işgüzar və ticarət əlaqələrini daha da möhkəmləndirməyə diqqət çəkmək üçün biznes liderləri və hökumət nümayəndələrini bir araya gətirəcək.

Missiya bir neçə hökumət görüşləri, təkbətək görüşlər və qəbullarda iştirak edəcək.

Missiyada "Baxter", "Bloomberg LP", "Capstone Turbine", "Dow", "Honeywell", "Globalise", "Langan", "Miyamoto International", "Osisoft", P&G, "Thomson Reuters", "Turner International", "Wayback's Burgers", "WSP/Parsons Brinkherhoff" şirkətləri iştirak edir.

# Avropa Şurasında Dünya Demokratiya Forumu keçirilir

**Strasburqda Avropa Şurasının təşkilatçılığı və Fransa hökuməti, Strasburq şəhər meriyası, Elzas regionunun dəstəyi ilə "Azadlıq nəzarətə qarşı: demokratiya üçün cavab" adı altında Dünya Demokratiya Forumu başlayıb.**

APA-nın Avropa bürosunun xəbərinə görə, 2 gün davam edəcək forumda "Təhdid olunan demokratik cəmiyyətdə azadlıqla təhlükəsizlik arasındakı tarazlığı necə qorumalı?", "Demokratik cəmiyyətlər qorxunun aradan qalxmasına nə dərəcədə müqavimət göstərə, məsuliyyət və fəal vətəndaşlıq üzərində qurulmuş cavablar təklif edə biləcəklər?", "Fərdlər hüquq və azadlıqları pozulmadan təhlükəsizlik risklərini üzərilərinə götürə biləcəklərmi?" kimi müxtəlif aktual suallara cavablar axtarılacaq.

Foruma dünyanın 100-dən çox ölkəsindən siyasət adamları, vətəndaş cəmiyyətlərinin üzvləri, jurnalistlər, aktiv gənclər və müvafiq ekspertlər - ümumilikdə 1500 nəfərə qədər iştirakçı qatılıb.

Forumun qonaqları arasında Fransanın Avropa məsələləri üzrə dövlət katibi Harlem Dezir, ABŞ Milli Təhlükəsizlik Agentliyinin sabiq zabiti Vilyam Binney, Avropa İttifaqının məhkəmələrarası əməkdaşlıq Agentliyinin sədri Mişel Koninsks, İslam Bilikləri və Orta-Şərq Mərkəzinin sədri Əhməd İravani, 2011-ci il Nobel sülh mükafatçısı Tavakkol Karman, Quantanamo həbsxanasının keçmiş məhbusu Murad Bençellali kimi tanınmış simalar da var.

Forumda 19 işçi qrup üzrə müxtəlif sahələr və mövzular üzrə müzakirələr aparılacaq.


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# Vidadi Zeynalovun ittiham olunduğu maddələr açıqlandı

**İşdən çıxarılaraq həbs edilən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalovun ittiham olunduğu maddələr bəlli olub.**

"Qafqazinfo"nun məlumatına görə, bu barədə Zeynalovun vəkili Adəm Məmmədov açıqlama verib.

Vəkil bildirib ki, Bakı İstintaq Təcridxanasında saxlanılan Vidadi Zeynalovla görüşüb. Vidadi Zeynalov Cinayət Məcəlləsinin 179.3.2 (Mənimsəmə və ya israf etmə; külli miqdarda törədildikdə;) və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunur.

A.Məmmədov deyib ki, cinayət işi Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən araşdırılır: "Buna görə də Vidadi Zeynalovun adının MTN-lə bağlı proseslərdə hallanması düzgün deyil. Vidadi Zeynalov deyir ki, ömründə bir dəfə də olsun Eldar Mahmudovun üzünü görməyib. Deyir, onu MTN-lə bağlayan yeganə amil qardaşı Vahid Zeynalovun orada idarə rəisi işləməsi olub. Qardaşı da son proseslər zamanı vəzifəsindən çıxarılıb".

Vəkil qeyd edib ki, Vidadi Zeynalovun səhhəti yaxşıdır, saxlanma şəraitindən şikayəti yoxdur.

Xatırladaq ki, Səbayel Rayon Məhkəməsinin qərarı ilə V. Zeynalov barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

# "Beynəlxalq Bank işi": biznesmenlər həbsdə qaldı

**Adı "Beynəlxalq Bank işi" qalmaqalında keçən bir neçə iş adamının həbs müddəti Nərimanov Rayon Məhkəməsinin dünən verdiyi qərarla uzadılıb. Bu barədə virtualaz.org saytına vəkil Kamandar Nəsibov məlumat verib. "Bu işdə adı keçən digər şəxslərin həbs müddətinin uzadılması məsələsinə yaxın günlərdə yenidən baxılacaq. Proses bu gün başlayıb" - deyə vəkil bildirdi.**

Qeyd edək ki, sözügedən cinayət işi ilə əlaqədar Beynəlxalq Bankın məsul şəxsləri və bankdan böyük məbləğlərdə kredit götürərək qaytarmayan sahibkarlar həbs olunub.

Həbs olunanlar arasında aşağıdakı şəxslər var: Beynəlxalq Bankın Mərkəz filialının keçmiş direktoru İlqar Abdullayev, bankın Nəqliyyat filialının keçmiş direktoru Kənan Orucov, Beynəlxalq Bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İbrahim Hüseynov, "Azərinşaatservis" MMC Müşahidə Şurasının sədri Arif Həsənov, "Azərinşaatservis" MMC-nin təsisçisi olduğu "Trek İnvest" SC-nin direktor əvəzi Əli Əlişov, "İnter Glass" ASC-nin direktoru Fariz Muradov və digərləri.

Bundan əlavə Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyev də istintaqa cəlb olunub.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**"Xatırlayırsınızsa, təxminən 10 il əvvəl manatın kursu ancaq yüksəlirdi. O qədər yüksəlmişdi ki, əhalinin dollara marağı itmişdi. Mərkəzi Bank isə valyuta bazarına fəal intervensiya həyata keçirərək çalışırdı ki, milli valyutanın kursu hansısa ağlaban həddi aşıb keçməsin. Əhali pullarını manatla saxlayırdı, dolları və digər valyutaları az qala yaddan çıxarmışdı. Ölkədə dedollarizasiya prosesi gedirdi".**

# Baş bankirin "pulla dolu yastıq" absurdu

## Elman Rüstəmovun sözlərinə görə, əhalinin evlərdə saxladığı dollar kütləsi iqtisadiyyata heç cür xidmət etmir; ekspertlər də səbəb göstərirlər: "Əhali banklara etibar etmir..."



Elman Rüstəmov

Bu sözləri Mərkəzi Bankın sədri Elman Rüstəmov virtualaz.org saytının əməkdaşı ilə söhbətində deyib. Mərkəzi Bank rəhbəri bildirib ki, fevral devalvasiyasından sonra əks proses- dollarlaşma başladı. Manata maraq azaldı, həm fiziki, həm də hüquqi şəxslər öz vəsaitlərini əsasən dollara çevirdilər. Nəticədə isə dövriyyədən əhəmiyyətli miqdarda manat kütləsi çıxır və Mərkəzi Bankın anbarlarına yığılır.

E.Rüstəmov bildirib ki, anbarlarda saxlanılan əsginazların qiyməti yalnız onun çapına sərf olunmuş vəsaitlə - qəpiyin hansısa hissəsi ilə ölçülür. Hərçənd ki, bu pullar dövriyyədə olsa, iqtisadiyyata özünün nominal dəyəri həcmində fayda verə bilərdi. Bu isə milyardlarla manat deməkdir. Elman Rüstəmovun sözlərinə görə, son bir ildə dollarla saxlanılan əmanətlərin və yığımların həcmi hər ay artır. Əgər ötən ilin yekunlarına görə dollarla olan əmanətlərin və yığımların həcmi 6 faiz artmışdısa, təkcə bu ilin 9 ayında həmin pul kütləsinin az qala yarısı dövriyyədən çıxıb və anbarlarda öz saatını gözləməkdədir. Ölkədə əmanətlərin dollarlaşması səviyyəsi isə 75 faizi keçib.

**Mərkəzi Bank rəhbəri manat kütləsinin iqtisadiyyatın tələbatını tam ödədiyini deyib. O, ÜDM-in artdığı bir vaxtda manat kütləsinin niyə azaldığı haqda suallara cavab olaraq bildirib ki, Mərkəzi Bankın statistikasında ÜDM-in real artımından yox, nominal artımından bəhs edilmişdi. Çünki bu cür statistikalarda ÜDM-in nominal dəyəri əsas götürülür. E.Rüstəmov dövriyyədəki pul kütləsinin azalmasının səbəblərini izah edərək deyib ki, azərbaycanlılar həmişə sanballı miqdarda nağd pul saxlamağı xoşlayıblar. Yəni insanlar bank sektoruna və kredit kartlarına o qədər də etibar etmirlər.** "Təsəvvür etmək çətindir ki, hansısa amerikalı cibində 10-20 dollardan artıq nağd pul saxlayar. Xırda kupyurlar ona çaypulu verməyə lazımdır, bütün qalan ödənişlərini isə bank kartı ilə həyata keçirir. Ona görə də pullar həmişə dövriyyədədir. Azərbaycanda isə yaxşı qazancı olan istənilən şəxsin cibində yəqin ki, azı bir neçə yüz manat tapmaq olar. Üstəlik, daha bir neçə min dolları da hər ehtimala qarşı evində saxlayır"- baş bankir deyir.

**E.Rüstəmovun bildirdiyinə görə, azərbaycanlılar hazırda 50 və 100 manatlıq kupyurları da kütləvi şəkildə yığıb saxlayırlar. Bu kupyurların sayı dövriyyədə ilin əvvəlindən iki dəfə azalıb. Ölkə miqyasında isə bu, milyardlarla manat deməkdir. Həmin pullar banklarda saxlanılmayıb, dövriyyədən çıxarılıb və nəticədə Mərkəzi Bankın hesabladığı pul kütləsinə daxil deyil.** "Əhalinin əksər hissəsi öz pullarını banklarda yox, evdə, yastığın altında saxlamağa üstünlük verir. İnsanlar dollar almağa milyardlarla manat xərcləyir və sonra valyutanı yastığın altına qoyurlar. Bu dollar kütləsi iqtisadiyyata heç cür xidmət etmir, eynilə Mərkəzi Bankın anbarlarına yığılan manat kütləsi kimi"- deyə E.Rüstəmov vəziyyəti izah edir.

**Mərkəzi Bank rəhbəri ölkədə dollarlaşmanı azaltmaq üçün tədbirlər görüldüyünü bildirib. Məsələn, daşınmaz əmlakın alqı-satqısı əvvəl dollarla aparılırdısa, indi manata keçirilib. Hərçənd ki, bəzən tərəflərin vergidən qaçmaq üçün öz aralarında xəlvəti sövdələşmə etməsi istisna deyil. Həmçinin avtomobil bazarında dedollarizasiyanı azaltmağa imkanlar var. Etibarnamə ilə maşın idarə edənlərə qarşı tələblər sərtləşir və nəticədə qeyri-leqal avtomobil bazarı leqallaşır. Monetar və fiskal nəzarət gücləndirilir, kölgə iqtisadiyyatına qarşı mübarizə aparılır. Və bütün bu tədbirlər öz nəticəsini verməkdədir. Həmçinin iqtisadiyyatın pul kütləsinə olan tələbatı ödənilir. Mərkəzi Bank bir sıra iri layihələri dolayısı yolla maliyyələşdirməklə monetar siyasətini genişləndirir. Bu isə likvidliyin artmasına imkan yaradır.** "Biz ilin sonuna qədər Beynəlxalq Banka 3 milyard manatın ayrılmasını başa çatdıracağıq. Bu vəsaitin 2 milyard manatı artıq banka daxil olub. SOCAR-a ölkənin qazlaşdırılmasını başa çatdırmaq üçün 0,5 milyard manat ayrılıb. Biz bankların rezerv normalarını da aşağı salmışıq, bu da pul kütləsinin artmasına təsir edəcək",- deyə Elman Rüstəmov bildirib.

Ekspertlər isə bildirirlər ki, əhalinin pulu banklarda saxlamaq istəməməsi banklara olan inamın azalması ilə bağlıdır. Həmçinin banklara olan inamın itməsinin səbəbi olaraq əhali kütləvi şəkildə əmanətlərini geri çəkir. Bu da banklar üçün yeni problem yaradır. **Ekspert Əkrəm Həsənovun sözlərinə görə, pulu evdə saxlamaq yaxşı variant deyil:** "Əlbəttə, pulu yastıqda saxlamaq yaxşı deyil. Həm vətəndaş üçün yaxşı deyil, çünki oğurlaya bilərlər. Həm də banklar üçün çətin olur, banklar vəsaitsiz qalır. Bu, dövlətə də sərf etmir, çünki pul dövr etmir və iqtisadiyyat zərər çəkir. Əhali banklara etibar etmir".

**Ekspertin sözlərinə görə, əmanət cəlb etmək üçün dövlət və banklar müəyyən tədbirlər görməlidir:** "Vətəndaş bankdan kredit istəyəndə, bank nə deyir? Deyir, girov ver, zamin ver. Yəni vətəndaşa etibar etmir. Kredit sözünün mənası da etibardır. Vətəndaş banka əmanət qoyanda da kredit verir banka. Amma əvəzində girov və zamin istəmir. Vətəndaşın etibar etməsi üçün banklar şəffaf olmalıdır. Amma bizim 43 bankdan 30-u hesabatlarını gizlədir. Belə banka əmanət qoymaq olmaz. Çünki hesabatı gizləməsi bankın ağır vəziyyətindən xəbər verir. Qalır təxmini 13 bank, onlar hesabatını dərc edir. Həmin hesabatlardan görünür ki, təxmini 5-6 bankın vəziyyəti normaldır. Amma ən etibarlısı Beynəlxalq Bank və "Azərtürkbank"dır, çünki dövlətindir. Dövlət də əmanətlərə cavabdehdir. Ən təhlükəli banklar Rusiyaya mənsub olan iki bankdır: VTB və "Nikoil". Çünki Rusiya bank sistemi iflas həddindədir. Buna görə də bizim əmanətlər Rusiyaya gedib bata bilər. Ümumən hazırda əmanət qoyanların sayı xeyli azalıb. əmanətlərini çıxaranlar artır".

**Ekspert qeyd edib ki, bu ilin fevralından indiyədək banklardan təxminən 500 milyon manat vəsait çıxarılıb:** "Mərkəzi Bank iyundan sonra bu statistikanı gizlədir. Əmanəti çıxarmayanlar faizlərin batmasını istəmir, amma əmanət müddəti bitəndən sonra onlar da çıxaracaq".

Ekspertlər onu da vurğulayır ki, baş bankirin əhalinin evdə balışda pul saxlaması haqda açıqlaması kriminal ünsürləri evlərə basqınlar etməyə sövq edə bilər. Bu baxımdan onun bu cür açıqlama verməsi birmənalı qarşılanmır.

❑ **Röya RƏFİYEVA**



# Məmurlar haqda yalan məlumat yayan jurnalistlərə xəbərdarlıq edildi

## Əli Həsənov: "Bu tipli fəaliyyət qanuna ziddir və birbaşa hüquqi məsuliyyət doğurur"

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov son zamanlar kütləvi informasiya vasitələrində sui-istifadə hallarının artması faktı ilə bağlı AzərTAc-a müsahibəsində aşağıdakıları bildirib:**

- Azərbaycan Respublikasında söz və məlumat azadlığı, hər kəsin, o cümlədən kütləvi informasiya vasitələrinin, jurnalistlərin sərbəst şəkildə informasiya əldə etmək, hazırlamaq və yaymaq hüququ tam təmin edilib. KİV-lər Azərbaycanın daxili və xarici siyasəti, cəmiyyət həyatının müxtəlif sahələri, habelə dünyada baş verən mühüm hadisələr haqqında çoxsaylı məlumatlar, müxtəlif şərh və təhlillər hazırlayır və ictimai rəyə təqdim edirlər. Söz və məlumat azadlığı Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun mühüm tərkib hissəsidir və qarşıdan gələn dövrdə də Azərbaycan dövləti KİV-lərin müstəqilliyinin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

Bununla yanaşı, təəssüflə qeyd etmək lazım gəlir ki, KİV-lərin sərbəst fəaliyyəti üçün yaradılmış əlverişli şəraitdən son zamanlar sui-istifadə halları artıb. Xüsusilə internet media orqanlarında müxtəlif dövlət strukturları, onların rəhbərləri və əməkdaşları haqqında həqiqətə uyğun olmayan, əsassız, qərəzli, hətta şantaj xarakterli çoxsaylı məlumatlar yayılır. Vəzifəli şəxslərin guya işdən "kənarlaşdırılması", rəhbərlik etdikləri qurumlarda "yoxlamalar", evlərində "axtarışlar" aparılması, məmurların "həbsi", vəzifələrindən uzaqlaşdırılmış bəzi dövlət qurumlarının rəhbərləri ilə "əməkdaşlığı" və s. bu tipli qərəzli məlumatlar məqsədli şəkildə dövriyyəyə buraxılır. Əminliklə demək olar ki, belə məlumatlar yayan KİV-lər bununla öz tirajlarını artırmağa və mənfəət əldə etməyə çalışırlar. Diqqətə çatdırıram ki, bu tipli fəaliyyət qanuna ziddir və birbaşa hüquqi məsuliyyət doğurur.

Təəssüf ki, bəzi hallarda aparıcı KİV-lər də belə dezinformasiyaları tirajlayaraq öz oxucularını çaşdırırlar. Sosial şəbəkələrdə və məqsədli şəkildə fəaliyyət göstərən internet saytlarında yerləşdirilmiş yalan məlumatlar yoxlanılmadan, həqiqiliyi araşdırılmadan həmin ciddi media orqanlarının səhifələrinə yerləşdirilir.

Nəzərə almaq lazımdır ki, mövcud hal dövlət orqanlarının nüfuzuna xələl gətirir, onların iş rejiminin pozulmasına, cəmiyyətdə çaşqınlıq yaranmasına səbəb olur və ümumilikdə, Azərbaycan dövlətinin imicinə mənfi təsir göstərir.

Hesab edirik ki, Azərbaycan KİV-ləri, jurnalistlər daim məsuliyyətli olmalı, mövcud qanunvericiliyin tələblərinə əməl etməli, KİV-lərin sərbəst fəaliyyəti üçün yaradılmış əlverişli şəraitdən sui-istifadə hallarına yol verməməlidirlər. Jurnalist birlikləri, xüsusilə Mətbuat Şurası hazırda müşahidə olunan mənfi meyillərin aradan qaldırılması istiqamətində əməli tədbirlər görməlidirlər. Əks təqdirdə, qanuna zidd fəaliyyət göstərən, yalan məlumatlar yayan, cəmiyyətdə çaşqınlıq yaradan KİV-lər və jurnalistlər haqqında müvafiq hüquqi ölçü götürüləcək.

YENİ MÜSAVAT
N 257 (6285) 19 noyabr 2015

**İki gün öncə ölkə ərazisində internetlə bağlı yaranan problem bir reallığı üzə çıxardı. Daha çox medianı və onun oxucularını maraqlandıran bu məsələ ondan ibarət idi ki, internetsiz mühit çap mediasını bu sınaqdan üzüağ çıxardı. Oxucuya internetsiz də çatmanın verdiyi üstünlüklə xeyli tiraj əldə edən qəzetlər bu günlərdə özlərini yarışın qalibi kimi hiss etdilər.**

# İnternetsiz günlər... qəzetlərin yeri göründü...

Bəs redaktorlar bu məsələ ilə bağlı nə düşünürlər? Bu internetsizlik mühiti media adına hansı nəticəni ortaya qoydu?

"Yeni Müsavat" qəzeti baş redaktorunun birinci müavini Azər Ayxan hesab edir ki, son illər Azərbaycanda çap mətbuatının öz dövrünü başa vurması ilə bağlı diletant fikirlər yayılır. Müsahibimiz bunun belə olmadığını, kimləsə mübahisə etmək fikrindən uzaq olduğunu dedi: "Unutmayaq ki, bu, bir ənənədir. Mətbuatın bir ənənəsi var. Nə televiziya, nə radio, nə də digər texnoloji nailiyyətlər bu ənənəni aradan qaldıra bildi. Artıq bir çox Qərb ölkələrində də çap mətbuatının qalması, o ənənənin davam etməsi, insanların Qərb cəmiyyətinin hələ də qəzet oxuması bizim bu fikrimizi xeyli möhkəmləndirir. Azərbaycanda da kifayət qədər qəzet oxuyan, xəbəri, yazını, köşəni məhz print mediadan oxumaq istəyən təbəqə var. Sadəcə olaraq, qəzetə ulaşmaq, onu əldə etmək ənənəsi zədələnib. Heç kim qəzet oxumaqdan imtina etmir. Yayıma yaradılan süni əngəllər, ənənəvi yayım şirkətlərinin sıradan çıxarılması, poçtalyon sisteminin olmaması, metrolarda qəzet satışına əngəllərin yaradılması, əyalətlərə qəzetlərin pinti şəkildə çatdırılması oxucunu küsdürdü. Artıq insanlar üçün qəzet almaq əlçatan deyil".

**A.Ayxan hesab edir ki, elektron medianın, sosial şəbəkənin inkişafı da çap mediasına təsir göstərib. Amma o, bu təsirin də birbaşa çap mediasını aradan qaldırmadığını vurğuladı:** "Son internet böhranı da çap mediası erasının bitmədiyini üzə çıxardı. Sübut olundu ki, Azərbaycanca bir neçə gün internet olmasa, qəzetlər insanları, əhalini informasiya ilə təmin edəcəklər. Bu baxımdan qəzetlərin sıradan çıxmasını doğru hesab etmirəm. Bəlkə 1-2 ay internet olmayacaq? Onda insanlar informasiyasız qalmalıdılar?"

**Müsahibimiz hesab edir ki, həm çap, həm elektron medianın inkişaf etməsi bu baxımdan arzuediləndir:** "Yaxşı olardı ki, hər ikisi olsun - həm elektron, həm də çap mediası. Bu ənənə də yaşasın və yenisini formalaşdırmaqda davam etsin".

**Qafqazinfo.az saytının baş redaktoru Elbrus Ərud isə bu iddialarla razı olmadığını bildirdi. Dedi ki, yaranan problemlə müqayisə olunan məsələ arasında yerlə göy qədər fərq var. Müsahibimizin sözlərinə görə, bu gün internet deyəndə təkcə sosial şəbəkə və saytlar nəzərdə tutulmur:** "Bu gün Azərbaycanın dövlət və özəl sektorunda bütün idarə, müəssisələrində işlərin hamısı internetləşdirilib, bu elektron sistemlə həyata keçirilir. Tutaq ki, bu gün banklar internetlə işləyir. İnternetin kəsilməsi bütün bank sistemini o gün çökdürdü. Ona görə də, o gün



**Azər Ayxan:** "Son internet böhranı da çap mediası erasının bitmədiyini üzə çıxardı"



**Qabil Abbasoğlu:** "Bu fikirlə qismən razılaşmaq olar"



**Elbrus Ərud:** "Bütövlükdə götürəndə çap mediası son 10 ildə itirilib və heç vaxt bərpa olunmayacaq"

yaranan problemi təkcə saytlar adına problem kimi qiymətləndirmək doğru deyil. Yəni internetsiz həyat yoxdur".

**Müsahibimiz hesab edir ki, internetlə bağlı problem çap mediasının daha etibarlı olması qənaətini yaratmır. Baş redaktorun fikrincə, internet olmasa, heç çap mediası da nəşr oluna bilməz:** "Çünki qəzetlər harada yığılır, harada səhifələnir? Kompüterdə. İnternet vasitəsilə şəkillər kəsilir, toplanır. Bütövlükdə götürəndə isə çap mediası son 10 ildə itirilib və heç vaxt bərpa olunmayacaq. Azərbaycanda bu gün ayaqda olan iki qəzet var ki, ortabab səviyyədə çıxır. Yerdə qalanların üstündən KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu əlini çəksin, sabah bağlanacaqlar. Qabaqlar qəzetlərə kolbasa və ya hansısa ərzaq büküb məişətdə istifadə edirdilər. Bu gün heç buna da ehtiyac yoxdur. Məsələn, siz sonuncu dəfə qəzetə bükülü nəyisə nə zaman görübsünüz?"

**Lent.az saytının redaktoru Qabil Abbasoğlu isə bu məsələdə tamam fərqli düşünür. Onun sözlərinə görə, internet sahəsində baş verən nasazlıq nəticəsində çap mediasının daha etibarlı olması fikri ilə qismən razılaşmaq mümkündür:** "Məsələn, adi elektrik təminatı kəsiləndə print media da elə həmin çətin duruma düşür. Sadəcə olaraq, elektrik təminatı artıq elə bir səviyyəyə çatıb ki, onun kəsilməsi insanlarda təəccüb yaradır, qeyri-adi olay sayılır. Kimsə düşünmür ki, bu, uzun müddət davam edə bilər. Yəni güvənli bir sistem qurulub. Vəzifə nədir? İnternet təminatını da bax bu səviyyəyə çatdırmaq".

**Müsahibimizin sözlərinə görə, ev və ofislərdə işıq, su nə deməkdirsə, internet də o anlamda və o səviyyədə olmalıdır:** "Bundan sonra ya internet kəsilməsi, ya işıq, ya da su kəsilməsi... sıradan kommunal həyat problemi kimi qarşılanacaq. Və internet media ilə print medianın dediyiniz "fərqi" aradan qalxacaq".

❑ **Sevinc TELMANQIZI**

# Rauf Mirqədirovun məhkəmə istintaqı başladı

## Prosesdə şahidlər ifadə verdilər; məhkəmə iclası qapalı keçirildi; proses noyabrın 25-də davam edəcək



Rauf Mirqədirov

**Noyabrın 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovun növbəti məhkəməsi keçirildi. Əvvəlki prosesdən iclasın qapalı olacağı dəqiqləşmişdi. Bu baxımdan məhkəmə binası önünə azsaylı şəxslər toplaşmışdı. Məhkəməyə gələnlər əsasən vicdan məhbusunun yaxınları, həmkarları və keçmiş partiyadaşları idilər.**



Hakim Əlisultan Osmanovun sədrliyi ilə məhkəmə prosesi 10:30-da başladı. R.Mirqədirovun yaxınları belə zala daxil ola bilmədilər. Jurnalistin anası Rəfiqə İsayevanın oğlu üçün gətirdiyi ərzaqların ona çatdırılmasına imkan verilmədi. Məhbusun anası ilk dəfə olaraq belə halla üzləşdiyini məhkəmə önündəki jurnalistlərə çatdırdı. O bildirdi ki, oğlunun saxlanıldığı MTN təcridxanasında da bu cür qanunsuzluqlarla üzləşməyib. Məhkəmə iclasına yalnız şahidlər- "Ayna Zerkalo" qəzetinin redaktoru Elçin Şıxlı və psixoloq Azad İsazadə buraxıldı.

Üç saat ərzində məhkəmənin gedişatından xəbər tutmaq mümkün olmadı. Yalnız günorta saatlarında prosesdə saat 14:00-a qədər fasilə yarandığı məlum oldu.

**Müdafiə tərəfinin vəkili Fuad Ağayev fasilə müddətində bildirdi ki, verdiyi vəsatətlərin heç biri təmin olunmayıb:** "Vəsatətlərimin heç biri təmin olunmadı. Məhkəmə istintaqı başladı. Yerdə qalanlar barədə xəbər verə bilmərəm. Sizləri əmin edirəm ki, Rauf Mirqədirova verilmiş ittihamın heç bir hüquqi əsası yoxdur. Arif Yunusun azadlığa buraxılmasının dolayısı yolla təsiri bu işə də olmalıdır. Amma hələlik biz onu görmürük. Mirqədirovun vəziyyəti məhkəmə hazırlıq iclasında olduğundan fərqlənmir. Məhkəmə istintaqı başladı. Gözləntimiz müsbətdir".

**Saat 14-00-da proses şahidlərin ifadələri ilə davam etdi. Soyuq hava şəraiti R.Mirqədirovun ailə üzvlərinin sona qədər məhkəmənin nəticəsini gözləməyə imkan vermədi. Vicdan məhbusunun anası Rəfiqə İsayevə məhkəmə binasının önünü tərk edərkən, oğlu ilə bağlı mətbuata açıqlama verdi:** "Raufun yaxın günlərdə buraxılmasını arzulayırıq. Oğlumun yazdığı bütün məqalələr tarixə düşəcək yazılardır. Yazdığı məqalələr dövlətin arzuladıqları ilə üst-üstə düşür. Oğlumun səhhəti ilə bağlı onu deyə bilərəm ki, onun başı bərk ağrıyır, gözləri zəif görür. Hazırda saxlanıldığı MTN təcridxanasına tez-tez dərmanlar alıb aparıram. Onunla görüşə icazə verilmir. Zəng etməyə də imkan verilmir. Qanuna görə, Raufa ayda bir dəfə görüş, həftədə bir dəfə isə zəng etməyə icazə verilməlidir. Amma bu günə qədər qanunda nəzərdə tutulanları əldə edə bilmirəm. Rauf elə bir şəxsiyyətli jurnalistdir ki, daim dövlətini, xalqını sevib. Ona verilən maddə onun həyatı, fəaliyyəti, şəxsiyyəti ilə üst-üstə düşmür. Deyərdim ki, o maddə Raufa heç yaraşmır. Xalqımdan, dövlətimdən xahiş edirəm ki, məsələ ilə bağlı müsbət fikirlərini ortaya qoysunlar. Oğlumu belə ağır vəziyyətdən azad etməlidirlər. Onu Leyla və Arif Yunusların işinə görə saxlayıblar. Gəldiyim qənaət budur. Hazırda Arif Yunusu buraxıblar. Onlara verilən dövlətə xəyanət maddəsinin icraatını dayandırıblar. Ümid edirəm ki, Arif Yunusa edilən jest Raufa da tətbiq ediləcək".

## Rəfiqə İsayeva: "Arif Yunusa edilən jest, Raufa da tətbiq ediləcək..."

**Məhkəmə iclası axşam saatlarına qədər davam etdi. Prosesdə şahid kimi dindirilən psixoloq Azad İsazadə ifadələrindən sonra mətbuata bunları dedi:** "Normal bir proses keçdi. 10-15 dəqiqə ərzində ifadə verdim. Bəzi məsələləri danışmaq mümkün deyil. Rauf bəy özünü normal hiss edirdi. Sadəcə, onu deyə bilərəm ki, gülümsəyirdi. Əhval-ruhiyyəsi pis deyildi".

**Digər şahid Elçin Şıxlı şahid kimi dindirilməsinə belə aydınlıq gətirdi:** "Dövlət ittihamçısı və Rauf Mirqədirovun vəkili suallarını verdilər. Suallar əsasən Raufla münasibətlərimdən, onun necə müxbir olmasından ibarət idi. Qeyri-adi bir şey yox idi. İl yarım həbsdə olan insanın vəziyyətinin nə yerdə olduğunu deməyə ehtiyac yoxdur. Amma pis deyildi. Məhkəmənin bütün mənzərəsini görə bilmədiyim üçün tendensiyanı söyləyə bilmərəm. Mənimlə çox yaxşı davranırdılar. Başqa cür də ola bilməzdi. Suallarını verdilər, rahat şəkildə cavab verdim".

**Təqribən saat 17:00 radələrində məhkəmə binasından çıxan vəkil Fuad Ağayev prosesin bir həftədən sonra davam edəcəyini söylədi:** "Məhkəmə iclası noyabrın 25-də, saat 10:30-da davam edəcək. Normal bir proses keçdi. Məhkəmə istintaqına qədər olanları nəzərə almasaq, yəni vəsatətlərin təmin olunmamasını, məhkəmə istintaqı normal keçir. Müdafiə tərəfinin mövqeyi əsaslıdır. Biz bundan sonra da mövqeyimizi isbat edəcəyik".

Xatırladaq ki, Rauf Mirqədirov ötən il aprelin 19-da həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə (Dövlətə xəyanət) ittiham irəli sürülüb. İttiham üzrə o, ömürlük və ya 15 ilə qədər azadlıqdan məhrum edilə bilər.

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

YENİ MÜSAVAT
N 257 (6285) 19 noyabr 2015

## Sabiq xüsusi xidmət zabitindən sensasion müsahibə

**Müsahibimiz təqaüddə olan xüsusi xidmət polkovniki Tofiq Zəbulla oğlu Rəcəbovdur. 2000-ci ilə qədər Xüsusi İdarədə çalışıb və oradan ayrılaraq biznes fəaliyyəti ilə məşğul olmağa başlayıb. Onun açıqladığı məqamlar bu gün ölkədə baş verən proseslərin hansı olaylardan qaynaqlandığını ortaya qoymaqla siyasi səhnədə baş verənlərin üzərindəki sirr pərdəsini qaldırır.**



# "Azərbaycana inqilab üçün 18 milyard dollar gətirilmişdi" - şok iddia

Polkovnik Tofiq Rəcəbov "Yeni Müsavat"a qan donduran açıqlamasında Mahmudov çetesinin siyasi hakimiyyəti ələ keçirmək niyyətində olduğuna dair müdhiş bilgilər verdi; "2013-cü ildə Bakı aeroportunda tutulan 18 milyardı Beynəlxalq Banka mədaxil etmək tapşırılıb, həmin vəsait sonradan oğurlanıb"

- İşlədiyim dövrdə xalqıma, prezidentimə sadiq olmuşam. Heydər Əliyevin dövründə Xüsusi İdarədə işləmişəm, ona sadiq olmuşam. O dövrdə bəzi qüvvələr ezamiyyətdə olduğum vaxtda Elman Qəmbərovun rəisliyi dövründə işdən çıxardılar. Mən o vaxt Heydər Əliyevə arayış yazmışdım ki, bizim bəzi varlı nazirlərimiz hökumət və xalq üçün böyük təhlükədir. Bunu yazandan sonra məni işdən çıxardılar. Bu sənədlər arxivdə var, qaldırıb baxsınlar. Bu yaxınlarda mən biznesimlə əlaqədar İsveçrədə idim. Orada bir neçə adamla görüşdüm. Onlar təklif etdilər ki, bəzi məsələləri prezidentə çatdırmaq lazımdır, ölkəyə təhlükə var. Yəni bəzi nazirlər qrup halında birləşiblər. Xarici ölkələrin, xüsusən Avropanın və böyük dövlətlərin siyasi rəhbərliklərinə çıxış axtarırlar. Özlərinə dayaq axtarırlar ki, gələcəkdə hakimiyyətə yiyələnsinlər, öz əmlaklarını qorusunlar. Bakıya qayıdan kimi dərhal yazıb çox yüksək səviyyəli bir vəzifə daşıyıcısına verdim. O da aparıb bunu verib Eldar Mahmudova. O da mənə çatdırdı ki, istəyirsən bu həyatda yaşayasan, bir də ağzına belə şey gətirmə.

Akif Çovdarov qapımızı pusdururdu, oğlumu güdürdülər. Demişdilər ki, danışsan, oğlunu tutub yox edəcəyik.

Bunlar 2 il əvvəl olub. 2013-cü ildə prezident seçkisindən əvvəl. Həmin pullar çevriliş etməyə xərclənməli idi. Həmin pullardan mənə də təklif etmişdilər. Demişdilər ki, zavodların var, o pulları zavodlarına ayıraq. Pulu seçkidən 2-3 ay əvvəl verməli idilər. Başa düşdüm ki, çevrilişə hazırlıq gedir.

*- Niyə belə qənaətə gəldiniz?*

- Çünki çox böyük məbləğlərdən söhbət gedirdi.

*- Söhbət nə qədər məbləğdən gedirdi?*

- 18-20 milyard pul gətirilməli idi. Bunu mənə deyəndən sonra MTN-də çalışan yaxın dostum vasitəsilə yazıb ötürdüm. Həmin pul ölkəyə gətirilən kimi burada tutdular. Əməliyyat mənim informasiyama əsasən keçirilmişdi.

*- Əməliyyat harada keçirilmişdi?*

- Bakı hava limanında.

*- Nə qədər pul tutuldu?*

- 18 milyard dollar. O pulun rəsmi qəbzlərinin kopyaları da məndə var.

*- O pul necə oldu?*

- Pulu Cahangir Hacıyev qol çəkib "Beynəlxalq Bank"a götürdü.

*- Pulu göndərən kim olub?*

- Pul Rusiya tərəfdən gəlib. Bu işdə adı olan adamların adlarını, telefon nömrələrini mən vermişdim. O adamlar Naxçıvandan idilər. Birinin qardaşı MTN-də işləyirdi, biri başqa böyük vəzifədə işləyirdi.

*- Ad, familiyalarını açıqlaya bilərsiz?*

- Hələlik çəkmirəm, o adamlardan vəzifədə olanı var. Mən bu haqda nə bilirəmsə, bir neçə gün əvvəl yazıb Mədət Quliyevə də ötürmüşəm.

*- Həmin pul hazırda haradadır?*

- Mənə elə gəlir ki, həmin adamlara deyiblər ki, pulu "Beynəlxalq Bank"a mədaxil ediblər. Faktiki isə həmin pul mədaxil olunmayıb. Pulu, sadəcə, oğurlayıb xaricə göndəriblər. Pulun xaricə göndərilməsində Çingiz Əsədullayevin vasitəsilə "Azəriqazbank"dan istifadə olunub.

*- Bu fikirləri nəyə əsasən söyləyirsiniz?*

- Danışdıqlarım real informasiyalara söykənir. Əlimdə sənədlərin surəti var ki, həmin pullar banka mədaxil olub. Faktiki isə pulu mədaxil etməyiblər. Ehtimal edirəm ki, prezidentə də səhv məruzə ediblər ki, pul bizdədir, mədaxil olundu. Faktiki isə pulu oğurlayıblar.

*- O pulu nəyə görə verirdilər?*

- Pulsuz çevriliş etmək olar? Pulu öz adamlarının zavod və fabriklərinə, öz adamları vasitəsilə camaata paylayıb küçəyə çıxaracaqdılar. Pulun qəbzi məndə var, istintaqa da təqdim etməyə hazıram.

*- Bütün bu işlərin arxasında dayanan kimdir?*

- Bu gün Suriyada Bəşər Əsədə qarşı döyüşənlər, buradan göndərilənlər Eldar Mahmudovun adamlarıdır. Orada oturan vəhhabi rəhbərlərdən hər göndərilən bədbəxt azərbaycanlıya görə 10 min dollar pul alırlar.

*- Adamlar ora necə göndərilir?*

- Buradan Türkiyəyə göndərirlər, Türkiyənin Xətai bölgəsindən keçirirlər o tərəfə. Bu haqda MTN-ə məlumat yazmışam. Adamları buradan ora göndərənlər barəsində ətraflı məlumat vermişəm. Əllərində Suriyanın hansı bölgəsinə kimi göndəriblərsə siyahılar var. Yazdığım müraciətlərə baxmayıblar.

*- Sizcə, bunun səbəbi nə olub?*

- Eldar Mahmudovun əmisi oğlu Sumqayıtda vəhhabilərin başçısıdır. Onlar hər tərəflə işləyirlər. Elə pul axınları haqda məlumatlıyam ki, desəm, ölkədən qaçarlar. Bu gün vəhhabilərin ağsaqqalı Eldar Mahmudovdur və fəaliyyətlərini davam etdirirlər. Zaqatala, Balakən, Xaçmaz və Quba zonalarında aktiv işləyirlər.

*- Banklardakı fəaliyyətlərinə qayıdaq. Nə baş verir?*

- Eldar Mahmudovun Gəncədə moteli var. Oranın müdiri Çingiz Əsədullayev və Cahangir Hacıyevlə birgə İsveçrədə "JBS" bankın idarə heyətinin sədri, erməni əsilli bir şəxslə danışıblar, orada hesab açdırıblar. Həmin erməni Türkiyə ermənisidir, türkcə danışa bilir. Çingiz Əsədullayevin vasitəsilə milyardlarla pul "JBS" banka köçürülüb. Hər gün Beynəlxalq Bank və "Azəriqazbank" vasitəsilə "JBS" banka 50 milyon pul ötürüblər. Yazıb vermişəm. Yoxlamırlar.

*- Söhbət 18 milyarddan gedir?*

- Bu pulları onlara ötürən Rusiyada yaşayan azərbaycanlılar, Amerikada yaşayan iranlı var, Rəsul Quliyevin qohumu və başqaları olub. İstədikləri ölkədə çevriliş etmək olub. Eldar Mahmudovgil həmin pulları ölkəyə qeyri-rəsmi gətirmişdilər. Səs-küyü çıxdı deyə, başqa orqanlar da bundan xəbər tutub ölkə rəhbərliyinə məlumat çatdırdılar. Bundan sonra məcbur qalıb pulu götürüb Beynəlxalq Banka mədaxil etdikləri görüntüsünü yaratdılar. Ortada Cahangir Hacıyevin həmin pulu götürməsi haqda sənəd də var. Bunlar gördülər ki, pul məsələsini hamı bildi, oynamaq istədikləri oyun da hamıya məlum oldu, pulları göndərənlərə də atdılar.

Hələ də o pulun ardınca gələnlər var. Deyirlər ki, bir neçə milyard götürün, qalan məbləği qaytarın. Pulun dalınca gələn adamları MTN-ə aparıb döyüblər, yola salıblar. Yalandan deyirlər ki, guya pullar İran neftinin puludur, embarqodan dolayı bura göndərilib. Əslində isə 18 milyardı bunlar "Azəriqazbank" və Beynəlxalq Bank vasitəsilə kredit kimi camaata paylayıb ayağa qaldırmaq istəyirdilər. Azərbaycanı Suriyaya döndərəcəkdilər. Eldar Mahmudov və onun ətrafına daxil olanlar Sistani kimi şiə müsəlmanlarının din rəhbərinin yanına öz adamlarını yerləşdirib ona Azərbaycanla bağlı fitva verməsinə nail olmaq istəyirdilər. Özlərinin camaata qarşı etdiklərini prezidentin etdiyi kimi qələmə verib ölkədəki durumla bağlı xof yaratmağa çalışırdılar.

*- "Azəriqazbank" üzərindən həyata keçirilən əməliyyatlar haqda da hüquq-mühafizə orqanlarına məlumat vermisiz?*

- Vermişəm. Bir fakt deyim. "Azəriqazbank"da Eldar Mahmudovun əmisi oğlu Emin Mahmudov və qaynı otururdu. Çingiz Əsədullayev Eldar Mahmudovla orada şərikdirlər. Banklara yerləşdirilən pullar bu adamların əllərində böyük pul kimi fırlanıb. "Azəriqazbank"da girovda olan əmlakların böyük hissəsini tutub sahiblərindən alıblar. Vəzifə səlahiyyətlərindən sui-istifadə ediblər. Əllərinin altında məhkəmələrin hakimləri olub. Kimin əmlakını istəyiblər, həmin hakimlər vasitəsilə ələ keçiriblər. Mən "Azəriqazbank"a Teymur Əliyev küçəsində 120 kvadratlıq qiyməti 1 milyon olan obyektimi, Yusif Çəmənzəminli küçəsində 38 kvadrat metr olan 200 min qiyməti olan mağazamı, Masazır və Qubada torpaq sahələrimi girov qoymuşdum. Ümumilikdə 1 milyona yaxın kredit götürmüşdüm. Sonradan isə başıma oyun açdılar. Qəbələdəki şərab zavodumu bağladılar və başladılar pulu geri tələb etməyə. Kreditin təminatı kimi girov qoyduğum əmlaklara müştəri tapdım, apardım. Amma əmlakları müştərilərə satmadılar. Dedilər ki, əmlakları özümüz alacağıq. "Külək" MMC adlı hərracxanaları var. Ora vasitəsilə heç bir hərracsız 1 milyon qiyməti olan obyektimi 90 min qiymətləndirib keçirdilər adlarına. Mən bunu biləndən sonra şikayət etmişdim. Növbəti gün üstümə MTN-dən Sübahir adlı generalı göndərmişdilər. Sübahir Teymur Əliyev küçəsindəki mağazama gəlib dedi ki, şefin göstərişidir, şikayət etsən özünü də, oğlunu da tutacağıq.

*- Şef kimdir?*

- Eldar Mahmudov. Yusif Çəmənzəminli küçəsindəki obyektimi də 30 min manata "oformit" edib götürüblər. Buna baxmayaraq, faizləri bu gün də dayandırmırlar. Borcun təminatı olan əmlaklarımı götürüblər, amma faizləri hesablamaqda davam edirlər. Bunlar oğru qanunları ilə işləyirdilər. Sən faizdəsən, əlində nə varsa, hamısı bizimdir. Bütün əmlaklarımı əlimdən alıblar, deyirlər ki, 600 min də ödəyəcəksən. Deyirlər ki, Qubada konserv zavodunu da verməlisən. Deyirəm ki, müştəri tapım, sataq. "Xeyr, özümüz satacağıq" söyləyirlər. Bu adamlar heç bir qanuna baxmadan sahibkarların başına oyun açırlar. Mənim Masazırdakı torpağımın 30 sotuna 900 min manat verən müştəri var. Amma satmağa qoymurlar. Məhkəmələr də bunların tərəfindədir. Çingiz Əsədullayevə 100 dəfədən artıq məktub yazmışam ki, imkan ver, torpağımı satım, sənin borcunu ödəyim. Cavab vermir. Bunların adı bankdır, əslində əmlakları yağmalayan kontoradırlar. "Krışa"ları Eldar Mahmudov idi. Təsəvvür edin, MTN-in Yasamal şöbəsinin yerini Eldar Mahmudov satdı. Bu gün orada Əbülfəz adlı şəxs çoxmərtəbə bina tikib. Orada "Odessa" restoranı vardı. Sahibindən aldılar, o restoranın əvəzinə mənim Nərimanovdakı "Ayişə" adlı şadlıq evimi əlimdən alıb verdilər ona.

*- Bu məsələlərlə bağlı şikayət etmisiniz?*

- 1000-dən artıq şikayət yazmışam. Prezidentə yazmışam ki, bu adamlar Azərbaycanda sabotajla məşğuldur. Sahibkarlara ilişirlər, yalandan cərimələr yazırlar, cinayət işi başlayırlar ki, böyük narazılıq yaratsınlar. Bu gün də başda vergilər naziri olmaqla, nazirlər belə işlərlə məşğuldurlar. Vergilər nazirinin müavini Natiq Əmirovun etdiyi qanunsuzluqların sayı-hesabı yoxdur. Bir dəstə nazir var ki, Eldar Mahmudovdan geri qalmırlar. Bu adamların əmək haqqı 2 min manatdan artıq deyil. Necə olur ki, bunlar 2 mindən artıq obyektin sahibi olurlar?

❑ **E.MƏMMƏDƏLİYEV**

**REDAKSİYADAN:** Müsahibədə adları hallanan şəxsləri dinləməyə, mövqelərini qəzetdə çap etməyə hazırıq.

YENİ MÜSAVAT
N 257 (6285) 19 noyabr 2015




# Zülfüqarlı qardaşlarının zavodlarında çalışanlar prezidentə müraciət etdilər

## İllərdir işsiz qalmış yüzlərlə vətəndaş ədalətin bərpasını xahiş edir

**Təhdid və zor gücünə sahibkar Zülfüqarlı qardaşlarının əlindən alınmış zavodların kollektivi prezident İlham Əliyevə və ictimaiyyətə videomüraciət ünvanlayıb. (https://www.youtube.com/watch?v=kdPximlQYVc&feature=youtu.be)**

Müraciətdə deyilir ki, böyük zəhmət və sərmayə hesabına işləri bərpa edilən və ixracyönlü uğurlu fəaliyyətə başlayan "Bakı Poladtökmə", "Bakı Elektroştamp" zavodları bu gün işlərini tamamilə dayandırıb. Vaxtilə 1500-ə qədər adamın çalışdığı və sürətlə böyüməkdə olan zavodlar öz sahiblərindən zorla alındıqdan sonra bu gün boş zibillik halına gəlib. 2005-ci ildə zavodların əsas səhmdarı və idarəçisi Nurəddin Zülfüqarlı yoldan başına torba keçirilərək həbs edilmiş, həbsdə Dövlət Əmlak Komitəsinin sədri Kərəm Həsənovun təklifi ilə qardaşlara məxsus səhmlər verildiyi halda azad olunub. Səhmlərin əsas hissəsi ilk olaraq Lerik rayonundan bir kəndlinin adına keçirilib, daha sonra isə "Bakı Steel Copmpany" MMC-nin adına dəyişdirilib. 2010-cu ildə isə "Bakı Steel Copmpany" MMC-nin rəhbəri Rasim Məmmədov silahlı dəstə ilə Zülfüqarlı qardaşlarını tamamilə zavoddan qovub. Sahibkarların hüquqi müstəvidə zəbt olunmuş əmlakını geri almaq uğrunda çabaları boşa çıxmış, hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq və məhkəmə orqanları onların ədalətli tələblərinə üz çevirmişlər".

Daha sonra müraciətdə deyilir ki, sahibkarlara məxsus əmlakın reket yolu ilə ələ keçirilməsi ilə yanaşı, mövcud, işlək zavodların tamamilə dayanması yüzlərlə işçinin təminatlı işini itirməsi kimi böyük bir ziyana yol açılıb, iri bir vergi ödəyicisinin fəaliyyəti əngəllənib. Kollektiv ümid edir ki, ədalət bərpa olunsa və zavodlar öz həqiqi sahiblərinə qaytarılsa, orada işləri də bərpa olunacaq. Onlar yenə də yaxşı maaşla, yüksək şərait, pulsuz yemək və iş geyimi ilə təmin olunduğu rahat işlərinə qayıdacaqlarına əmindirlər: "Bundan dövlət də qazanmış olar, vətəndaşlar da".

❑ E.MƏMMƏDƏLİYEV

# Nazirlik Talassemiya Mərkəzi ilə bağlı xəbərlərə münasibət bildirib




**"Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatı tərəfindən xaricdən talassemiya üzrə mütəxəssis dəvət edilib və onlar Respublika Talassemiya Mərkəzidə tədbir keçirmək istəyiblər. Bildiririk ki, onlar tədbiri Səhiyyə Nazirliyi ilə razılaşdırılmamış şəkildə keçirməyə cəhd ediblər və bunun qarşısı alınıb". Bu barədə APA-ya Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib.**

"Onlara tədbirin keçirilməsi üçün başqa məkan təklif olunsa da, onlar bununla razılaşmayıblar", - deyə məlumatda qeyd olunub.

Nazirlikdən onu da bildiriblər ki, bəzi mətbuat orqanlarında mərkəzdə xəstələrin sağlamlığı üçün kifayət qədər şəraitin yaradılmaması və ölüm hallarının artması ilə bağlı deyilən fikirlərin heç bir əsası yoxdur: "Respublika Talassemiya Mərkəzində xəstələrin müalicəsi üçün yüksək şərait yaradılıb".

O da qeyd olunub ki, Azərbaycanda irsi qan xəstəliklərindən ölənlərin sayı xeyli azalıb.

Qeyd edək ki, dünən bir qrup şəxs Respublika Talassemiya Mərkəzinin qarşısında aksiya keçirməyə cəhd edib.

# Eldar Mahmudovun parlamentdəki deputatları...

## Ekspertlər bildirirlər ki, bütün siyahıdakıları Çingiz Əsədullayevin aqibəti gözləyir...

**Milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifədən uzaqlaşdırılmasından sonra növbə onun deputat siyahısına da çatdı. Nazirin siyahısından deputat olduğu iddia edilən qudası Çingiz Əsədullayev deputat mandatından məhrum edildi.**

90 saylı Ağdaş seçki dairəsinin nəticələri ləğv olundu. Mərkəzi Seçki Komissiyası noyabrın 17-də keçirilən iclasında noyabrın 1-də Milli Məclisə keçirilmiş seçkilərlə bağlı müraciətlərə baxılıb və şok qərar qəbul edib. 90 saylı dairədən namizəd olmuş iki şəxsin müraciəti dərhal araşdırılıb və MSK dairədə səsvermənin nəticəsini ləğv edib.

Ç.Əsədullayev isə bundan mətbuat vasitəsilə xəbər tutub. "Siz məni təəccübləndirdiniz. Mən qalib gəldiyim dairədə seçkilərin nəticələrinin ləğv edilməsindən indi xəbər tuturam",- deyə, o, virtualaz.org saytına açıqlama verib. Onun sözlərinə görə, ona nə MSK-dan, nə də DSK-dan seçkilərin nəticələrinin ləğv edilməsi ilə bağlı heç bir xəbərdarlıq olunmayıb.

Qeyd edək ki, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qudası olan Ç.Əsədullayevin mandat alması real görünmürdü. Amma adı deputat seçilənlərin siyahısına düşmüşdü. Ehtimallara görə, o, mandatını itirməklə yanaşı, Müşahidə Şurasının sədri olduğu "Azəriqazbank"dan uzaqlaşdırılacaq, hətta istintaqa da cəlb olunacaq.

MTN sefi vurularkən, onun deputat siyahısının olduğu və həmin siyahıdan heç kimin parlamentə düşə bilməyəcəyi kimi fikirlər də bildirilirdi. E.Mahmudovun "adamı" olduğu deyilən, ona yaxın deputatlığa namizədin olması kimi ehtimallar da siyasi çevrələrdə səslənirdi. İndi isə bildirilir ki, sabiq nazirin siyahısından parlamentə bir neçə nəfər düşə bilib və onlar təmizlənəcək. Qeyd edək ki, Milli Məclisə seçilmiş deputatların təsdiqlənməsinə bir neçə gün qalıb. Ekspertlər MSK-nın Ç.Əsədullayevlə bağlı qərarının siyasi motivli olduğunu bildirirlər. Bildirilir ki, artıq sabiq nazirin hakimiyyətdaxili qruplaşması zərərsizləşdirilir.

**Ç.Əsədullayev qeyd edib ki, hökumətin və prezidentin istənilən qərarını dəstəkləyir:** "Əgər hökumət, MSK bu dairədə seçkinin nəticələrinin ləğv edilməli olduğunu düzgün hesab edirlərsə, deməli, belə də olmalıdır. Mən bu qərarı heç bir halda şübhə altına almaram".


Çingiz Əsədullayev


Ziyad Səmədzadə


Naqif Həmzəyev

Artıq mətbuatda Eldar Mahmudova yaxın deputatların adları açıqlanır. Ehtimallara görə, bunlardan biri Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, 23 saylı Nəsimi-Səbayel seçki dairəsindən lider namizəd Ziyad Səmədzadədir. Bəzi iddialara görə, Z.Səmədzadənin E.Mahmodovla yaxın əlaqəsi olub. Musavat.com-un yazdığına görə, deputat Z.Səmədzadə E.Mahmudovun atası akademik Əhməd Mahmudov haqqında geniş məqalələr, monoqrafiyalar yazıb və filmlərin çəkilməsində iştirak edib. Musavat.com-un əldə etdiyi məlumata görə, Ziyad Səmədzadənin də mandatının ləğv ediləcəyi gözlənilir. Bu barədə qərarın ya bu gün Mərkəzi Seçki Komissiyasının keçiriləcək iclasında, ya da Konstitusiya Məhkəməsində seçkinin nəticələri təsdiq edilərkən veriləcəyi gözlənilir.

Arqument.az-a daxil olan məlumata görə isə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin də nəticələrinin ləğv edilməsi müzakirə predmentinə çevrilib. Mənbə bildirir ki, bu dairədən Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülən Naqif Həmzəyevin adının müxtəlif qalmaqallarda, "MTN işi" və nurçularla yaxınlıqda hallanması dairənin nəticələrinə yenidən baxılmasını aktuallaşdırıb.

İddia olunur ki, prosesin gedişi Naqif Həmzəyevin də mandatdan məhrum edilməsi ilə nəticələnə bilər. Hazırda onunla bağlı araşdırmaların aparıldığını deyən mənbə iddia edir ki, artıq bununla bağlı Gəncənin icra başçısı Elmar Vəliyevə də məlumat sızdırılıb. Son günlər Həmzəyevin MTN-ə yaxınlığı ilə bağlı yayılan xəbərlər isə onun özünü də çətin vəziyyətdə qoyub.

Görünür, hakimiyyət gələcəkdə ciddi problemə çevriləbiləcək şəxsləri indidən "təmizləməyə" qərar verib. Bu da bir çox dairələrdə YAP-çı və müstəqil namizədlərin mandatdan məhrum edilməsi ilə nəticələnəcək.

**Ekspertlər isə bildirirlər ki, E.Mahmudovun deputat siyahısından parlamentə düşə bilmiş digər şəxsləri də bu aqibət gözləyir. Ekspert Azər Rəşidoğlu məsələ ilə bağlı musavat.com-a bildirib ki, sabiq nazirin neçə deputatının parlamentə düşə bildiyini söyləmək çətindir:** "Bu suala cavab vermək asan deyil. Eldar Mahmudova şəxsi yaxınlığı ilə seçilən simaları aşkarlamaq mümkündür. Lakin hər hansı formada MTN-lə bağlı olan millət vəkilləri, siyasətçi və jurnalistləri de-şifrə etmək olduqca qəlizdir. MTN, həbs edilən Akif Çovdarov və İlqar Əliyevin, şəxsən Eldar Mahmudovun təsir dairəsində olan simalar kifayət qədər çoxdur, onların hamısını aşkarlamaq imkansızdır. Sadəcə, əl dəyişə bilər və həmin agentura şəbəkəsi yeni sahibinə xidmət etməyə başlaya bilər. Burada Eldar Mahmudovdan söhbət getmir, MTN agenturası müzakirə predmetidir. Onların sayını müəyyən etmək isə mümkün deyil".

**Ekspert Natiq Miri isə qeyd edib ki, sabiq nazirin deputat siyahısı ictimaiyyət üçün dəqiq olmadığından, bu barədə konkret informasiyalar yoxdur:** "Bu barədə konkret informasiyalar yoxdur, müəyyən ehtimallar var. Bu şəbəkəyə bağlı bütün insanlar, istər deputat, istər mühüm vəzifələrdə olanlar, hamısı hakimiyyətin qollarından uzaqlaşdırılacaqlar. Son etapda, deputatlığı nəticə elan olunandan 16 gün sonra ləğv olunan Çingiz Əsədullayevin məsələsi göstərdi ki, məsələ ciddi şəkildə nəzarətə alınıb. Hər bir halda, nəzərə almaq lazımdır ki, Milli Təhlükəsizlik Nazirliyi dövlətin dayağı sayılır və bütün dövlət strukturlarına və rayon icra hakimiyyətlərinə təsir imkanları böyükdür. Düşünürəm ki, bu orqanın vasitəsilə parlamentə deputatların seçilməsi prosesi zamanında böyük çətinlik yaratmayıb. Bu, araşdırılsa, hansısa yollarla həll olunacaq və onlar parlamentdən uzaqlaşdırılacaqlar".

❑ Röya RƏFİYEVA

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, onun struktur qurumlarının və tabeçilikdə olan müəssisə və əlaqəli şirkətlərin ayrı-ayrı rəhbər şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə, mənimsəmə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq-əməliyyat qrupu yaradılmaqla istintaq aparılır.**

# 95 milyon manatlıq yeyintinin dərin izləri

## Naməlum şirkətlər, şişirdilmiş tariflər, ciddi korrupsiya faktları; Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "qazan"ı necə qaynayıb?

Artıq bununla bağlı Baş Prokurorluğun yaydığı rəsmi məlumat var. Amma sıradan oxucu üçün maraqlı olan başqa bir məqamdır. Sözügedən nazirlik yeyinti, pul köçürməsi, korrupsiya üçün nə qədər "uyğun" bir məkandır? Çünki rəsmi məlumatdan da göründüyü kimi, söhbət nə az, nə çox, düz 95 milyon manatlıq yeyintidən gedir. Nazirliyin həyata keçirdiyi layihələr, ona verilən səlahiyyətlər bu qədər ciddi miqyasda korrupsiyaya "icazə verirmi"?

Öncə prokurorluğun məlumatındakı korrupsiya detallarına diqqət edək. İstintaqla müəyyən edilib ki, dövlət əmlakının sistemli şəkildə mənimsəmə və israf etmə yolu ilə talanması məqsədilə rollar bölüşdürülməklə qeyd olunan qurum və şirkətlərin ayrı-ayrı vəzifəli şəxslərindən ibarət korrupsiya şəbəkəsi təşkil olunaraq büdcə vəsaitlərinin talanması istiqamətində çoxsaylı korrupsiya sxemləri həyata keçirilib. Korrupsiya şəbəkəsinə daxil olan vəzifəli şəxslər tərəfindən dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşmiş layihələrin yaxın qohumlarının adına rəsmiləşdirilməklə faktiki özlərinə məxsus şirkətlər tərəfindən həyata keçirilməsinin rəsmiləşdirilməsi barədə saxta sənədlərin tərtib olunması, görülən xidmətlərin dəyərinin dəfələrlə şişirdilməsi, faktiki yerinə yetirilməmiş xidmətlərə görə ödənişlərin həyata keçirilməsi və sair yollarla külli miqdarda dövlət əmlakını mənimsəmə və israf etmələri aşkar edilib.

Qohumlarla bağlı faktlar yetərincə ciddidir. Məsələn, onlardan biri Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin baş direktoru Beytulla Hüseynovla bağlıdır. Onun 2009-2015-ci illərdə həyat yoldaşının təsisçisi olduğu "Bakı Rabitə Təmir Tikinti" və "Təmir Təchizat Servis" MMC-lərin direktoru Bayram Vəliyev, yaxın münasibətlərdə olduğu "3 nömrəli Rabitə Təmir Tikinti", "Rabitə Mülki Tikinti" MMC-lərin direktoru Emin Məmmədov və birliyin baş mühasibi Anar Mustafayevlə qabaqcadan əlbir olub yeni rabitə xətlərinin çəkilməsi, binaların, qurğuların təmiri-tikintisi və sair işlərin yerinə yetirilməsi üçün onların hesablaşma hesablarına köçürüləcək pul vəsaitlərinin işlərin həcmindən asılı olaraq 35-45% həcmində hissəsinin nağdlaşdırılaraq B.Hüseynovun özünə verilməsi barədə razılığa gəliblər. Bundan sonra B.Hüseynov tabeliyində olan qovşaqların formal olaraq keçirdikləri tenderlərdə vəzifə saxtakarlığı ilə həmin məhdud məsuliyyətli cəmiyyətlərin qalib elan olunaraq müqavilələr bağlanmaqla və faktiki işlərin tam icra olunmadığı halda, o cümlədən internet xidmətinin təmin edilməsi üçün fiber-optik kabel xətlərinin çəkilişi zamanı işlərin faktiki olaraq telefon qovşaqları tərəfindən aparıldığı halda guya həmin işlərin faktiki özünə məxsus olan müəssisələr tərəfindən görülməsi və işlərin həcminin artırılması barədə saxta sənədlərin tərtib edilməsi yolu ilə adıçəkilən MMC-lərin hesabına köçürülmüş ümumilikdə 71 milyon 263 min manat məbləğində vəsaitin 21 milyon 379 min manatını mənimsəməklə dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmalarında şübhələr üçün əsaslar müəyyən edilib.




Korrupsiya faktlarında diqqət çəkən başqa bir məqam isə qulluq mövqeyindən sui-istifadə ilə bağlıdır. Fakta diqqət edək. Nazirliyin aparat rəhbəri Vidadi Zeynalovun qulluq mövqeyindən sui-istifadə edərək nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə qabaqcadan razılaşmaqla həmin strukturlar tərəfindən işlərin görülmədiyi, tam yerinə yetirilmədiyi, avadanlıqlar alınmadığı, istifadə olunan avadanlıqların, xidmətlərin qiymətlərinin isə 4-5 qat şişirdilməsi və digər üsullarla işlərin və xidmətlərin guya yerinə yetirilməsini özlərinin himayə etdikləri, yaxın münasibətdə olduqları şəxslərin adına olan özəl şirkətlər tərəfindən saxta sənədlər əsasında rəsmiləşdirməsini təmin etməklə müvafiq müəssisələrin ayrı-ayrı banklardakı hesabına köçürülmüş 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsini və israf edilməsini təşkil etməsində şübhələr üçün əsaslar müəyyən edilib.

**Multimedia Mərkəzinin rəhbəri Osman Gündüz "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, prokurorluğun rəsmi məlumatında qeyd olunan maddələr ortada ciddi korrupsiya faktlarının olmasından şübhələnmək üçün əsas verir. Müsahibimiz qeyd etdi ki, burada diqqətini cəlb edən məqam bu sektorda adını tanımadığı şirkətlərin bəzi əməliyyatlarda iştirak etməsidir:** "Bu şirkətlərlə müqavilələr bağlanıb, onlara müəyyən işlər gördürülüb. Rabitə xidmətlərinin göstərilməsi, kabellərin çəkilməsi ilə bağlı müqavilələr bağlanıb. Məsələn, mən prokurorluğun xəbərini oxuyana qədər belə şirkətlərin varlığından xəbərsiz idim. Son dövrlərdə, araşdırmalar getdiyi bir zamanda iki belə qurumun adına rast gəlmişəm ki, bunların adını daha öncə eşitməmişdim. Onlarla Bakı Telefon Rabitəsi İstehsalat Birliyi iş aparıb. Bundan sonra nazirlik açıqlama verdi ki, onlar bu şirkəti tanımırlar. Nazirlik özü deyəndə ki, mən bu şirkətləri tanımıram, deməli, bu, ciddi araşdırma tələb edir".

**O.Gündüz onu da dedi ki, nazirlikdə min cür xidmətlər, işlər var və onlarda hansısa korrupsiya izləri tapmaq mümkündür. Müsahibimizin sözlərinə görə, Bakı Telefon İstehsalat Birliyi fiberobtik xətlərin çəkilməsində şişirtmələr yol verilib:** "Bəlli bir metrdə hansısa bir metr fiber-obtik xəttin çəkilməsi neçəyə başa gələ bilər. Müqavilədə bu, öz əksini tapır. Reallıqda bu, daha ucuz başa gəldiyi halda rəqəmlər şişirdilmiş ola bilər".

❑ **Sevinc TELMANQIZI**

# "Eldar Mahmudovun cinayətkar şəbəkəsi təkcə iki nazirliklə yekunlaşmır"

## Sərdar Həmidov: "Sahibkarlar Akif Çovdarovun yox, çox dəhşətli bir mütəşəkkil dəstənin əsirinə çevrilmişdilər"

**"Eldar Mahmudov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, şantaj və şirnikdirmə yolu ilə əksər nazirliklərin yüksək vəzifəli şəxslərini də bu və ya digər şəkildə öz cinayətlərinə şərik edib. Onun bütün nazirliklərdə adamları olub və faktiki olaraq dövlətin içində iri bir cinayətkar şəbəkə formalaşdırıblar. Bu məsələlər ciddi araşdırılmalı və dövlət aparatı bu cinayətkar şəbəkədən tam təmizlənməlidir".**


Sərdar Həmidov

Bunu "Yeni Müsavat"a açıqlamasında Tərtərin sabiq icra başçısı, Tərtər Özünümüdafiə Batalyonunun komandanı olmuş Sərdar Həmidov deyib. O bildirib ki, hələ illər öncə dövlət aparatındakı cinayətkar şəbəkənin vətəndaşların başına müsibətlər gətirməsi haqda məlumatlı olub və bunları mətbuata açıqlayıb: "Hələ 2010-cu ildə bir yaxın adamın başına gətirilən müsibətləri araşdırmışdım, çox dəhşətli şeylər üzə çıxmışdı. Bunları qismən mətbuata da açıqladım, amma faydası olmadı. Məsələ ondadır ki, Eldar Mahmudov faktiki olaraq reket üsul-idarəçiliyi ilə davranıb, əksər dövlət qurumlarına, nazirliklərə, banklara öz adamlarını yerləşdirməklə iri bir cinayətkar şəbəkə formalaşdırıb. Faktiki olaraq Çovdarov təkcə Eldar Mahmudovun deyil, dövləti təhdid edən cinayətkar şəbəkənin ümumi sifarişlərini icra edib. Məndə olan məlumata görə, Çovdarov elə iri, arxası, nüfuzu olan sahibkarları hesaba oturdub ki, onların susması mənə təəccüblü gəlirdi. Hətta bu işin başında MTN rəhbərliyi dayansaydı belə, həmin sahibkarın susması mümkün deyildi. Görünür, bu adamlar dövlət aparatında elə kök salıblarmış ki, soyğuna məruz qalan adamlar şikayət etməyə də çəkiniblər. Yoxsa yekə iş adamları uşaq-muşaq deyildilər ki, bir quldur Akif onları bu hala sala biləydi. Ona görə də bu cinayətkar şəbəkənin dayaqları tamamilə sıradan çıxarılmalıdır, ciddi istintaq və araşdırılma aparılmalıdır. Eyni zamanda ortada bir fakt da var ki, Eldar Mahmudov-Akif Çovdarov bandasının təhdid altında saxladıqları, qanunsuz məhkəmə qərarları, hökmləri çıxartdırdıqları hakimlər, məhkəmə sədrləri də olub. Onların məhkəmə sistemində də nəzarət altında saxladıqları adamlar çoxdur. Onlar da təmizlənməlidir".

**S.Həmidov dedi ki, E.Mahmudov Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyini "verbovat" etməsi dəhşətli bir dövləti cinayətdir:** "Bəzən belə rəylərə rast gəlirəm ki, guya Əli Abbasov normal məmur olub, yaxşı kadr imiş. Qətiyyən belə deyil. Mən dəfələrlə o adamın qanunsuz fəaliyyəti ilə bağlı rəsmi şikayətlər də etmişəm. Onun ətrafında uzun illərdir cinayətə bulaşmış bir komanda vardı. Hətta 18-20 yaşlı idmançı gənclərdən ibarət qoçu dəstələri də vardı onun. Rabitə Nazirliyində həyata keçirilən korrupsiya əməliyyatlarını obyektiv araşdırsalar, tarixdə görünməmiş cinayətlər üzə çıxacaq. İkinci bir fakt, Vidadi Zeynalovu ora aparat rəhbəri vəzifəsinə də Eldar Mahmudov təyin etdirmişdi. O, tamam başqa bir sahədə çalışan adam idi, qəfildən gətirdilər ora. Bütün bunları təbii ki, Əli Abbasovun gözünün qabağında edirlər və o da bu cinayətkar şəbəkənin güclənməsinə yardımçı olub".

**S.Həmidov qeyd etdi ki, əksər cinayətlərin sahibkarlara qarşı həyata keçirilməsi cinayətkar şəbəkənin vergi sistemində də adamları olmasına işarədir:** "Heç şübhəsiz ki, sahibkarların var-dövləti haqda da kimlərsə vergi sistemindən bu cinayətkar şəbəkəyə məlumatlar ötürüb. Onlar da ifşa edilməlidir. Sizə bir maraqlı məqamı deyim: Binəqədidə bir neçə ay öncə bina yananda çox qəribə bir vəziyyət yarandı, bu işin təxribat olub-olmaması məsələsi demək olar araşdırılmadı. Ancaq bu sırf təxribat idi, güman ki, burada həmin cinayətkar şəbəkənin də hansısa bir formada rolu var. Ola bilsin ki, bu, kimlərisə təhdid etmək üçün həyata keçirilmişdi. Məsələ ondadır ki, Binəqədinin icra başçısı vergilər nazirinin yaxın qohumudur".

**S.Həmidov dedi ki, cinayətkar şəbəkənin zərərsizləşdirilməsi işi peşəkarcasına həyata keçirilib:** "Bu qəti mövqeyinə görə İlham Əliyevə təşəkkür etməliyik. Çünki dövlətimiz faktiki olaraq növbəti bir bəladan xilas olub. Bu cinayətkar şəbəkə Azərbaycana elə problemlər yaradardı ki, müstəqilliyimiz təhlükəyə düşərdi. Bütün bu proseslərdən sonra bu qənaətə gəlirəm ki, əgər prezidentin ən böyük etimad göstərdiyi nazir belə qələtlər edibsə, deməli, bundan sonra nazirlərin və nazirliklərin fəaliyyətinə çox ciddi nəzarət edilməlidir. Hesab edirəm nazirliklərin və nazirlərin səlahiyyətləri minimuma endirilməlidir, həmçinin vəzifələrə dövlətçiliyə sədaqətli olacağı şübhə doğurmayan adamlar gətirilməlidir".

❑ **M.MAHRIZLI**

YENİ MÜSAVAT
N 257 (6285) 19 noyabr 2015



# Andiçmə mərasimi

Zamin HACI
zaminhaci@gmail.com

**Əsgərliyə getməyim keçmiş müdafiə naziri, hörmətli Səfər Əbiyevin sifarişi ilə baş tutmuşdu. Çox uzunçuluq etmədən, bircə faktı xatırladım: 4 əsgərin alimentar distrofiyadan öldüyü hərbi hissə haqda yazımdan cəmi 2 ay sonra həmin hərbi hissənin əsgəri idim. Sifariş belə verilmişdi. Məhz işin sifarişli olduğunu bildiyimdən heç bir qohum-əqrəbaya bildirmədən hərbi komissarlığa getmişdim, yolasalma "mərasimimdə" şair dostum Xosrov Natil, "Azadlıq" qəzetinin redaktoru Gündüz Tahirli və tam təsadüfən komissarlığın həyətində rastlaşdığım keçmiş tələbə yoldaşım Qahir bəy iştirak eləmişdi.**

Onlar da günün müəyyən saatlarına qədər. Axşama yaxın artıq komissarlığın həyətində tək qalmışdım. O vaxt Biləcəridəki komissarlığın həyətində mikrofonla adlar oxunur, çağırışçılar bir dəstə toplanır və yaxınlıqdakı vağzala qədər qaça-qaça gedib qatara minirdilər, hərbi hissələrə yollanırdılar.

Uzun sözün qısası, adımın çəkilməsi hardasa gecə saat 12-nin yarısında baş tutdu. Məhz o sifariş üzündən. Çünki Gəncə istiqamətinə qatar həmin vaxt çıxacaqdı. Buna görə mən əsgərliyə qaranlıqda getdim. Vətəni qorumağa bu cür getmək insanda heç də yaxşı təəssürat oyatmır.

Andiçmə mərasimim Murovda olub. O da yadımda çox uğursuz bir gün kimi qalıb. Çünki himni düzgün oxumurdular, buna görə bir polkovniklə dalaşmışdım. MN əcaib bir qərar vermişdi ki, "Cümlə gənclər müştaqdır" cümləsi oxunmasın. Ritmi pozurmuş! Təsəvvür edin, hansısa nazirlik himnə düzəliş eləmişdi. Yanılmıramsa, himnimizin bu cür oxunması qaydası orduda hələ qalır.

Tərxis olunmağım da qaranlığa düşdü, çünki 27 kilometr aralıdakı hərbi hissədən briqadanın qərargahına yanvar ayının qarlı-şaxtalı günündə özümüz, piyada düşməli idik. Günortadan yola çıxıb axşama ancaq çatdıq. Burda zülmət qaranlıqda bizə hərbi bilet və bir-iki manat yol pulu verildi, dedilər, rədd olun gedin, bir də üzünüzü görməyək. Son cümlələrdə ağ elədiyimi fikirləşməyin, təxminən belə yola salındıq.

Bu uzun xatirələrlə başınızı ağrıtmazdım, sadəcə, ötən bazar günü bir tanışın oğlu hərbi and içməli idi, mərasimə mən də getmişdim. Marağım vardı ki, görəsən, mənim and içməyimdən keçən 15 ildə silahlı qüvvələrimizdə bu tip mərasimlərdə hansı dəyişiklik olub. Hərbi hissənin yerini, növünü yazmaq istəmirəm, ancaq təəssüratım çox acınacaqlıdır.

Təsəvvür edin, yüzlərlə əsgərin andiçmə mərasimi palçıqlı, bataqlıq yolları olan bir yaşayış məskənindəki böyük hərbi hissədə baş tutur. O bataqlığı keçən adamda ordumuz haqda hansı hisslər yaranar?

Əsgərlər meydançada düzülüb, valideynlər isə ətrafda bir-birinin belinə minir, sırada uşaqlarını tapmağa çalışırdılar. Təbii ki, o vəziyyətdə kimin uşağı hansı sırada durub, görmək mümkün deyildi. "Ayə, o Kamran deyilmi, bax, əl çalır", "Əşşi, hamısı əl çaldı, məzələnmə", "Gərək uşağın üzünə rəng vuraydıq", "Bir az çəkil mən də baxım", "A kişi, telefonu yığışdır, çəkmək olmaz" tipli söhbətlər meydan ətrafını bürümüşdü. Yeri gəlmişkən, valideyn öz uşağının andiçmə mərasimini niyə video və fotoya çəkə bilməz, bunun mənası nədir? Cəbhə xətti deyil, ortada hər hansı böyük hərbi sirr, gizli silah yox. Niyə insanları mənasız yerə incidirlər? Niyə imkan vermirlər uşaqlar sabah ordunu xoş şəkildə xatırlasın?

Andiçmədən sonra valideynlər hissə ərazisindən kənara qovuldular, əsgərləri də bir neçə saatlığa buraxdılar. Bu zaman yaranan mənzərə də ürəkaçan deyildi. Çox pərakəndəlik, yolda tıxac, basabas, ağız deyəni qulaq eşitmir, bəzi valideynlər elə yolun qırağına palaz-malaz sərib əsgər uşağına yemək verir, kimlərsə çadır qurub çay satır və sairə. Orduda belə tədbirlər üçün hansısa şərait yaratmaq olmazmı?

Ən absurdu və gülməlisi isə bizim başımıza gəldi: düzgün məlumat ala bilmədiyimizdən andiçmə mərasimi bitəndən sonra öyrəndik ki, yanına gəldiyimiz uşaq... yaxınlıqdakı başqa hissədə and içibmiş.

---

**Azərbaycanın iş sektorunu çökdürən bir çetenin ağlalmaz əməlləri**



# Eldar Mahmudovun Hacı Məmmədovla ortaq fəaliyyəti üzə çıxdı - şok təfsilat

## MTN müəmmasında açar ola biləcək xəbər - təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da sahibkarlara "haqq qoymaq" istəyiblər; Beynəlxalq Bankın Moskva filialı Cahangir Hacıyevin rəhbərlik etdiyi dönəmdə Əfqanıstana 500 milyon dollar krediti nə məqsədlə veribmiş...

**Milli təhlükəsizlik naziri Eldar Mahmudovun işdən çıxarılması ilə Azərbaycanda başlayan "17 oktyabr inqilabı" - generalların həbsi də daxil, yüksək vəzifəli məmurların qandallanması davam edir. Azərbaycan müstəqillik qazandıqdan üzü bəri ilk dəfədir ki, hakimiyyət daxilində bu qədər miqyaslı həbslərə şahidlik edirik. "Niyə məhz indi?", "Niyə məhz Eldar Mahmudov?", "Niyə bu qədər əhatəli və güzəştsiz", "Əli Abbasovun əsl suçu nə?" sualları ətrafında bu günlər onlarla yazılar, versiyalar, şərhlər dərc olunub. Amma mənzərə hələ də tam aydın deyil: cavabını gözləyən suallar çoxdur.**

Əsas görünən odur ki, MTN adlı bir struktur və ona rəhbərlik edənlər prezidentin etimadından sui-istifadə edərək, dövlətin içərisində "mafiyasayağı masa" quraraq cəza aparatı yaradıblar, general mundiri geyinib quldurluq, soyğunçuluq ediblər, hətta nazirlərə racon və "haqq" kəsiblər, özlərinin poqonlu "mema-ti"ləri, "abdulheylər"i vasitəsilə məmurları, iş adamlarını görüntülü izləyiblər, sonradan onlara paketlərdə disklər göndərərək şantaj ediblər, biznesmenlərdən külli miqdarda pul alıblar, onların rəhbərlik etdiyi dövlət orqanlarına öz adamlarını təyin etdirərək strukturlara nəzarəti ələ keçiriblər. Eldar Mahmudov çetesini illərcə bunca güclü edən, hər yerdə adamlarını yerləşdirməsinin, bəzi çox yüksək vəzifəli məmurlara "haqq qoyması"nın şok səbəbi həm də budur: şantaj! Sən demə, bu çete təkcə "radikal müxalifətçiləri" deyil, həm də bəzi hakimiyyət mənsublarının sirlərini də disklərə yığıb. Sahibkarların bir neçəsi bu yolla müflis edilib, indi susmaqdan başqa çarələri də yoxdur. Onlar "daha heç nəyim qalmadı, hamısını sizə verdim" deyəndə, beləlplaceholderinə pul da təklif edilib. Azərbaycan tarixində ilk dəfə olaraq, kreditlə rüşvət mexanizmi yaradılıb. Belə ki, hədəfə alınan iş adamlarını Cahangir Hacıyevin nəzarət etdiyi əsasən iki bankdan - Beynəlxalq Bank və "Bank Technique"dən hazır kredit sənədlərinə qol çəkdirib "get, indi borcunu banka ödə", deyiblər. Bəzi borclu sahibkarlar bunu Beynəlxalq Bank skandalı üzə çıxanda istintaqda etiraf etməli olublar, bəziləri isə hələ də susur... Mafiyanın ən klassik üç üsulu qandallanmış MTN generallarının iş prinsipinə çevrilibmiş: təhdid, zorakılıq, şantaj...

***

Şübhələr var ki, MTN-də dağıdılan masanın əsas gəlir yeri həm də narkotik trafiki ilə bağlı ola bilər. Azərbaycanın beynəlxalq narkotrafik tacirləri üçün Avropaya keçid zonası olduğu bəllidir. İfşa olunan MTN generalitetinin bu trafikdən nə qədər qazandığı və ya belə əməliyyatları həqiqətən də məhz Azərbaycan üzərində keçirdiyi barədə dəqiq və təsdiqlənmiş bilgi yoxdur. Amma bununla bağlı ciddi şübhələrə əsas var. Məsələn, məlum olub ki, bugünlərdə rəhbəri dəyişdirilən Beynəlxalq Bankın Moskva filialı Cahangir Hacıyevin rəhbərlik etdiyi dönəmdə Əfqanıstana 500 milyon dollar civarında kredit verib. "Taliban"ın hələ də dinclik vermədiyi Əfqanıstana Beynəlxalq Bankın kredit verməsinin nə dərəcədə riskli olmasını bir kənara qoyaq. Niyə Əfqanıstana axı? Məlumatlar var ki, bu kreditlər də əslində pul şəklində bədbəxt Əfqanıstan hökumətinə verilməyib, yeni çirkli pulların yuyulması, hansısa sövdələşmənin qarşılıqlı hesablaşması kimi "transfer" olunub.

Rus işğalı altındakı Abxaziyaya isə heç bir girov şərtlərinə riayət etmədən yenə həmin filial vasitəsilə 100 milyon dollar kredit verilibmiş.

Bütün bu faktlar istintaqda var və iş materialları ilə sübuta yetirilir.

***

Daha bir sensasion, bəlkə də Eldar Mahmudov müəmmasında açar ola biləcək xəbər isə "MTN masası"nın" təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da sahibkarlara "haqq qoymaq" niyyətinə ilə bağlıdır. Bundan əvvəl də qandallanmış general Akif Çovdarov vasitəsilə Rusiyanın ayrı-ayrı şəhərlərində iş adamlarının incidilməsi, kimlərə isə "krışalıq"( himayə) təklif edilməsi barədə xəbərlər vardı. Redaksiyamıza daxil olan xəbərə görə isə E.Mahmudov şəxsən özü Rusiya hüquq-mühafizə orqanlarından birinin rəhbərliyində çalışan generalla görüşündə bir siyahı göstərib. Mənbəmiz deyir ki, o zaman nazir olan Mahmudovun siyahısında Rusiyanın biznes elitasının ən tanınmış adamlarının, hətta "Forbes"in milyarderlər siyahısında olanlar varmış... MTN sefi həmin milyonçuları "ilişdirmək" üçün yardım istəyib. Qaynağımız iddia edir ki, həmin siyahıda Rusiyadakı azərbaycanlı biznesmenlərdən də bəzi isimlərin adı olduğu istisna deyil. Həmin general isə siyahıda olanların adlarını oxuduqda təəccüb və heyrətini gizlətməyib. Çünki Rusiyanın bəzi tanınmış iş adamları həm də Kremlə yaxındırlar, bəziləri isə birbaşa prezident Vladimir Putinin himayəsi altındadırlar. Mənbəmiz deyib ki, MTN-də baş verənlər və Mahmudovun ifşasında Putinin rolu olduğu barədə xəbərlər də bu məsələdən qaynaqlanır. Yəni həmin rus general Mahmudovun bu niyyəti barədə Kreml rəhbərliyinə dərhal xəbər veribmiş...

Daha bir şok xəbərsə bundan ibarətdir: MTN-də saxlanan qanqster-polkovnik Hacı Məmmədovdan müxtəlif səviyyəli iş adamlarını ilişdirmək üçün istifadə olunub. Belə ki, Hacı Məmmədova telefon əlaqəsi şərait yaradılır; o isə əvvəllər tanıdığı iş adamlarından bəzilərinə telefon açır; onlarla hər hansı məzmunlu danışıq aparır, nəsə istəyir; daha sonra o, işini bitmiş sayır. Bir neçə saat sonra ifşa olunan MTN rəhbərləri həmin iş adamına qarşı xüsusi əməliyyata start verirlər. Onları maskalılar başlarına çuval keçirərək, saxlayır, MTN-ə gətirir; qeyri-rəsmi olaraq istintaqa cəlb olunurlar. İttiham da budur: "Hacı Məmmədovla əlaqə saxlamısan, onunla telefon danışıqları aparmısan"...

Onu da qeyd edək ki, bu cür məlumatlar çoxdur; qəzetimiz onları saf-çürük edərək, ifşa olunan MTN rəhbərlərinin ölkənin iş sektorunu necə məhv etməsi prosesini ictimaiyyətə açıqlayacaq.

❑ **"Yeni Müsavat"**

# İqtidar mətbuatı son həbslərlə bağlı niyə susur...

**Bəxtiyar Sadıqov:** "Biz bununla bağlı yalnız Baş Prokurorluğun, DİN-in və ya hər iki qurumun birgə açıqlamalarını yayırıq"
**Aydın Mirzəzadə:** "Son proseslər iqtidarın siyasi cəsarətini göstərir"

**Son zamanlar hakimiyyət daxilində baş verənlər, milli təhlükəsizlik naziri Eldar Mahmudovun, rabitə və yüksək texnologiyalar naziri Əli Abbasovun vəzifədən azad edilməsi, adıçəkilən qurumlarda həyata keçirilən yoxlamalar və həbslər cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Günlərdir bu məsələ ölkə mediasının, mətbuat orqanlarının manşetindən düşmür.**

Lakin müstəqil və müxalif mediadan fərqli olaraq iqtidar mətbuatı bu məsələyə səssiz qalır. Rəsmi və hakimiyyətə yaxin mətbuat orqanlarında son həbslərlə bağlı məlumata rast gəlmək mümkün deyil. Ölkə gündəmini dəyişən bu hadisələr sanki heç baş verməyib. Eləcə də hakim partiyanın üzvləri prezidentin addımlarını mətbuatda şərh etmir, münasibət bildirmirlər. Ümumilikdə bu görüntü elə təəssürat yaradır ki, sanki iqtidar düşərgəsinə baş verənlərə səssiz qalmaqla bağlı əmr verilib.

**Sözügedən məsələyə aydınlıq gətirmək üçün "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqovla əlaqə saxladıq.**

**Nazirlərin işdən çıxarılmasına və son həbslərə münasibət bildirən baş redaktor bunun ölkə başçısının müstəsna səlahiyyəti olduğunu dedi:** "Bu prosesə mənim münasibətin çox normaldır. Dövlət başçısı Milli Təhlükəsizlik Nazirliyində baş verən xoşagəlməz hadisələrdən xəbər tutub və dərhal öz iradəsini ortaya qoyub, bu məsələnin araşdırılması üçün hüquq-mühafizə orqanlarına göstərişlər verib. Xüsusi İstintaq Komissiyası yaradılıb və bu məsələ araşdırılır. Hüquq-mühafizə orqanları da əllərində əsas olduqda rütbəsinə, vəzifəsinə baxmayaraq həmin insanlar haqqında həbs-qətimkan tədbiri seçir və məhkəmənin qərarı ilə həbs edir. Bundan başqa, prezident özünün müstəsna səlahiyyətlərindən istifadə edərək bir sıra insanları tutduğu vəzifədən azad edir. Mən hesab edirəm ki, bu qərarlar çox ədalətlidir və prezident İlham Əliyev dövlətçiliklə bağlı çox prinsipialdır. Mən inanıram ki, bu məsələ sona qədər obyektiv şəkildə araşdırılacaq, hadisələrə qiymət veriləcək, vəzifəsindən sui-istifadə edənlər də qanun qarşısında cavab verəcəklər".

**B.Sadıqov bu haqda yalnız rəsmi informasiyaları dərc etdiklərini, prezidentin son addımlarını şərh etməyə səlahiyyətlərinin olmadığını bildirdi:** ""Azərbaycan" qəzeti rəsmi dövlət qəzetidir və yalnız dövlət qurumlarından gələn rəsmi informasiyaları yayımlayır. Biz çox azsaylı mətbu orqanlardanıq ki, yalnız faktlar yoxlanıldıqdan, dəqiqləşdirildikdən və rəsmi qurumlar tərəfindən təsdiq olunduqdan, rəsmi kanalla bizə göndərildikdən sonra onları dərc edirik. Yəni biz bununla bağlı müsahibələr alıb, rəylər öyrənə və həqiqətə uyğun olan-olmayan fikirləri dərc edə bilmərik. Bizim qəzet bu cür müstəqil araşdırma ilə məşğul olmur. Biz bununla bağlı Baş Prokurorluğun, DİN-in və ya ikisinin birgə açıqlamalarını yayırıq. Cənab prezidentin işdən çıxarılma ilə bağlı sərəncamlarını dərc edirik. Ancaq müstəqil şəkildə biz bu məsələ ilə bağlı araşdırma aparmağa, materiallar hazırlayıb prosesin içinə nüfuz etməyə çalışmırıq, bu bizim qəzetin prinsipinə uyğun deyil".





**YAP-dan olan deputat Aydın Mirzəzadə isə "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, son proseslər iqtidarın siyasi cəsarətini göstərir:** "Mən mətbuata açıq adamam və istənilən ictimai proseslə bağlı hər zaman fikirlərimi açıq şəkildə bildirmişəm. Bu məsələyə gəlincə, iki nazir fəaliyyətində yol verdiyi qüsurlara görə vəzifəsindən azad edildi. Onların işindəki problemlər barəsində mətbuata yetirincə məlumatlar verilib. Həm rəsmi, həm də qeyri-rəsmi məlumatlarda bununla bağlı geniş informasiya verilir. Bunun özü göstərir ki, Azərbaycan hakimiyyəti işində nöqsanlara yol verən məmurlara qarşı barışmazdır və onlar törətdikləri əməllərə görə cəzalarını alacaqlar. Eyni zamanda orta və aşağı təbəqədən olan məmurların fəaliyyətində əgər qanunazidd əməllər varsa, qanuna müvafiq addımlar atılır. Bu, Azərbaycan hakimiyyətinin qəti mövqeyidir və burada cəmiyyətdən gizlədiləsi heç nə yoxdur".

**Bu cür neqativ hallara qarşı niyə daha öncə tənqidi fikir səsləndirilməməsinə gəlincə, Aydın Mirzəzadə qeyd etdi ki, deyilən faktlar ilk dəfədir ki, ortaya çıxarılır. Bu səbəbdən əldə fakt olmadan kimisə ittiham etmək olmazdı:** "Müxalifətin tənqidlərində hakimiyyətin əleyhinə hər zaman ümumi sözlər olub. Yəni dedikləri nöqsanlar barəsində hər hansı fakt ortaya qoymurlar. Mətbuatın işi bunu işıqlandırmaq, münasibət bildirmək, dəstəkləmək və ya etiraz etməkdir. Bunun üçün mətbuata şərait yaradılıb. Ancaq ümumi xarakterli münasibətlə hər hansı məmura qarşı ittiham irəli sürmək olmaz. Bu gün ortaya çıxarılan faktlar ilk dəfədir ki, səslənir. Bunlar heç zaman səslənməyib və bu da onu göstərir ki, qüsurlara qarşı mübarizə aparmaq ilk növbədə iqtidarın özünün marağındadır. Çünki o, cəmiyyətdən mandat alıb və mandatına uyğun olaraq, ölkənin problemlərini həll edir, təhlükəsizliyini təmin edir və sosial problemləri həll etməyə çalışır. Bu vəzifəsini həyata keçirməyən, sui-istifadə hallarına yol verənlər isə məhkəmə qarşısında cavab verməli olurlar".

**Millət vəkilinin sözlərinə görə, bu faktların vaxtında ortaya çıxmamasının səbəbi həmin qurumların fəaliyyətinin məxfi aparılmasıdır:** "Müəyyən orqanlar var ki, onların fəaliyyəti haqqında məlumat qapalı olur. Bu onların fəaliyyətinin xüsusiyyətidir. Orada nə baş verdiyini ya orada olan insan bilə bilər, ya da ki, bu barədə cəmiyyətə məlumat ötürüldükdə insanlar xəbər tuta bilər. Belə olduqda isə vaxtında fikir bildirmək olur. Bəzən bizə irad tuturlar ki, hər hansı məsələyə niyə vaxtında fikir bildirmədiniz. Əgər məlumat yoxdursa, əgər bu fəaliyyət məxfi qrif altındadırsa, ona necə münasibət bildirək? Eyni zamanda ortaya çıxan qüsurlara biganə qalmaq, fikir bildirməkdən yayınmaq da düzgün deyil. Ümumən götürdükdə son proseslər iqtidarın siyasi cəsarətini göstərir. Bu, yüksək ad altında gizlənən insanların fəaliyyətindəki qüsurları açıq şəkildə cəmiyyətə bildirir. Bu onu göstərir ki, iqtidar məmurlardan vəzifələrini düzgün yerinə yetirməsini tələb edir. Buna əməl etməyənlər, sui-istifadə edənlər, öz maraqlarını güdənlər isə ifşa olunacaq və qanun qarşısında cavab verməli olacaqlar".

❑ **Nərgiz LİFTİYEVA**



# Nazarbayev və dostlarının varis problemi

## Yaxud avtoritarizmdə çarələr niyə tez tükənir?

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev olduqca maraqlı bir etirafda bulunub. O, indiyədək özünü bu postda əvəz edəcək varis tapa bilmədiyini söyləyib. Sitat: "Nə zaman əvəzedici axtarırsan, baxıb görürsən ki, ətrafın tapdaq altındadır".**

Qazax lideri bunu Astanada hökumətin geniş iclasında deyib. Onun fikrincə, varis yerinə layiqli heç kim yoxdur. "Təkcə mənəm. Bizdə başqası yoxdur, ona görə məndən möhkəm yapışın!" - qeyd edib prezident və zarafatla onu da əlavə edib ki, varis daha pis olacaq.

Vəziyyət isə həqiqətən zarafatlıq deyil. Nazarbayevin, həmçinin onun qonşusu, 30 ildir qazax həmkarı kimi fasiləsiz şəkildə taxtda oturan Özbəkistan prezidenti İslam Kərimovun gerçəkdən, varis problemi var.

Belə problem isə əlbəttə ki, diktatura, avtoritar rejimlərə xasdır. Çünki ölkəni on illərlə şəriksiz idarə edən qeyri-legitim rəhbərlər kərpic-kərpic qurulan korrupsiya-rüşvət piramidasının başında durduqlarından, hakimiyyətin "kənar əl" keçəcəyi təqdirdə topladıqları qanunsuz sərvətlərin taleyindən, ondan da betəri, ədalət mühakiməsinə tuş gəlməkdən haqlı şəkildə narahatlıq keçirirlər.

Bütün hallarda söhbət tipik avtoritar rəhbərin etirafından gedir. Eyni zamanda bu, demokratiyanın antidemokratik idarəçiliklərdən əsas üstünlüyünü ortaya qoyan parlaq bir nümunədir, faktdır. Ona görə ki, demokratiyada heç vaxt çarə tükənməz. Demokratiyada xalq heç vaxt rəhbərsiz qala bilməz. Nədən ki, yeni liderin, yeni prezidentin soyadının əvvəlki ilə eyni olması və onunla qohumluğu demokratiyada vacib şərt deyil, sayılmaz.

O avtoritar liderin problemidir ki, yerinə öz soyundan, nəslindən kimisə tapa bilmir. Xalqın isə belə dərdi yoxdur, ola da bilməz. Zira, istedadsız, qısır xalq olmur, qısır hakimiyyətlər olur. Hətta mövcud şərtlər altında belə Qazaxıstanda, bənzər siyasi idarəçiliyə malik istənilən başqa dövlətdə azad və ədalətli prezident seçkilərinin keçirilməsini təmin eləmək yetər ki, xalq qısa zamanda özünə yeni, legitim başçı tapsın.

Nazarbayevin açıqlamasından isə o da aydın olur ki, o, belə seçkilər düzənləməyə hazırlaşmır. İndiyədək bunu etməyibsə, siyasi ömrünün qürub çağında ona gedəcəyi heç inandırıcı deyil. Qazaz prezidentin dediklərində üstəlik, xalqa və ətrafına minnət qoymaq, onu qorxutmaq məramı gizlənib. Yəni "mən olmasam, daha pis günə düşərsiz, odur ki, məndən bərk yapışın" məntiqi.

Avtoritar idarəçiliyin mühüm xüsusiyyətlərindən biri də elə hökmdarın özünü əvəzedilməz, ən istedadlı, seçilmiş və bənzərsiz saymasıdır. Di gəl, bu "əvəzedilməz"lərin, "ən istedadlı"ların fasiləsiz rəhbər olduqları ölkələrin xalqları bir qayda olaraq səfalət içində yaşayır, onların iqtisadiyyatı zəif, mili pulları dollar, avro qarşısında həmişə dayanıqsız olur, nəinki prezidentləri 4-5 ildən bir seçki yolu ilə dəyişən ABŞ-ın, Avropanın demokratik ölkələrinin xalqları, iqtisadiyyatları və pulları.

Demokratik dövlətlərin xalqları acınacaqlı durumda ola bilməz. Heç bir nefti-qazı, başqa qiymətli təbii sərvəti olmayan Yaponiyanın indiki vəziyyətinə də baxın, neft-qaz ölkəsi Qazaxıstana, Özbəkistana, Türkmənistana da. Fərq müqayisəyə belə gəlməz. Lakin bu, o demək deyil ki, qazax xalqı yapon xalqından istedadsız, bacarıqsızdır.

Avtoritarizmdə çarələr də elə görə tez tükənir ki, xalqın potensialının açılmasına imkan verilmir. Bu potensialın açılması isə yalnız ölkədə azad və ədalətli seçki mühiti, şəffaf idarəçilik bərqərar ediləndə, təməl insan haqlarına riayət olunanda mümkündür.

Yalnız o halda əminlik hasil ediləcək ki, istənilən ölkənin ən qiymətli sərvəti yerin altında yox, üstündədir. Yəni onun azad seçki hüququna malik xalqı, azad insanlarıdır.

❑ **Z.SƏFƏROĞLU**

YENİ MÜSAVAT
N 257 (6285) 19 noyabr 2015



# Dirçəlmiş kütlə...

Hüseynbala SƏLİMOV

**Bəlkə də bütün bunlar elə həqiqətən də bir zarafat idi. Amma internetin olmadığı bir neçə saat ərzində insanlar özlərini elə göstərdilər ki, sanki onların həyatını korlayan bir şey varsa, o da elə internetdir...**

Mən həmin hadisə ilə bağlı nəsə yazmaq fikrində deyiləm. Fəqət, bir məsələni gərəkdir ki, qeyd edim. Biz inhisarların əhatəsində qalmışıq...

İnanmazdım ki, bu tendensiya internet sahəsində də özünə yer edib. Ona görə ki, informasiya təhlükəsizliyi haqqında bizdən çox danışan yoxdur. Düşünürdük ki, ölkə bunun üçün zəruri nə varsa, onları edir. Amma əfsus! Məlum oldu ki, inhisarçılıq burada da kök salıb...

Nə isə... Bu hadisəni də birtəhər yola verdik. Bir gün sonra isə Dirçəliş günü oldu. Hamımız dönüb özümüzdən soruşduq ki, görən, bu müddət ərzində bizi nə qədər dirçəlmiş hesab etmək olar?

Demirəm ki, illər hədər keçib. Yox, xeyli irəliləmişik. İndi bizləri Novruzəlilərə bənzətmək elə də asan deyil - bizim insanlarımız Qərbdən girib Şərqdən çıxırlar...

Amma siyasətə və hakimiyyətə münasibətdə elə həmin Novruzəlilər olaraq qalırıq. Ölkədə guya ki, parlament seçkisi oldu. Amma bizə nə dəxli? Ölkədə bu gün bu qədər qalmaqallı hadisələr baş verir. Soruşmaq istəyirsən ki, bizi və dövləti qorumalı olan şəxslər nələrlə məşğul imiş?..

Amma bizə nə dəxli? Bu ölkədə hərənin öz dükanı var. Bəzilərinin də dükanı nazirlik adlanır. İndi nə edək? Durub başqasının gəlirlərini sayaqmı? Yox, biz belə oğullar deyilik! Ona görə də bizə nə dəxli?!..

Ona görə də dirçəlmək məsələsi bir az qəlizdir... İndi yadıma o illər, o günlər də düşür - sonradan Dirçəliş adlanacaq həmin günlər...

O vaxt da çox itaətkar idik, kütlə itaətkarlığını qoruyub saxlamışdıq. Deyirdilər "oturun!" oturardurq, deyirdilər "qalxın!" biz də qalxırdıq. O vaxt içimizdə bir qorxu vardı...

Əslində biz meydanlara doluşmuş qorxaqlar idik. Normal insan və normal vətəndaş düşünərdi ki, mən niyə kiminsə sözü ilə oturub-qalxmalıyam? Amma biz özümüzə belə suallar vermirdik...

Bəli, biz daim qorxmuşuq - tribunada dayananlardan qorxurduq. O qədər qorxurduq ki, onların sözü ilə oturub-dururduq. Yüksək vəzifədə olanlardan qorxurduq. Ona görə ki, bizə həmişə onlardan qorxmaq təlqin edilmişdi. Biz də bunu qəbul etmişdik. Ona görə də təkrar-təkrar özümdən soruşuram ki, bu illər ərzində ürəklərimizdəki qorxu hissi azaldımı?

Əfsus! "Hə" deyə bilmirəm. Ona görə də çoxlu insanın bir yerə toplanması hələ heç nə demək deyil. Çoxlu insanın adı kütlədir. Kütlə isə kiminsə aləti deməkdir. Bu, hələ dirçəlmək demək deyil. Dirçəliş tamam başqa şeydir. Odur ki, özünün bir fərd, şəxs olduğunu dərk edirsən, səndə özünəhörmət hissi baş qaldırır. Amma kiminsə sözü ilə Meydanda oturub-duran adamlarda özünəhörmət hissi ola bilərmi?

Düşünürdük ki, "otur!" deyəndə oturmasaq, "dur!" deyəndə durmasaq bizi elə həqiqətən də erməni hesab edərlər, döyərlər, bəlkə də öldürərlər... Bizim heç bir güvənc yerimiz yox idi. Dövlətə güvənə bilmirdik, cəmiyyətə arxalana bilmirdik, lap elə Meydandakı insanlara ümid edə bilmirdik... Mənə o vaxt elə gəldi ki, bu ölkədə hələ uzun müddət şəxsə, fərdə hörmət olmayacaq... Bilmirəm, müasir politologiyada "totalitar kütlə" anlayışı var, ya yox? Amma o günlərdə kütlə mənə totalitar bir toplum kimi göründü. O vaxt düşündüm ki, bu günlərdə gələcək avtoritar sistemin məşqi gedir. Həmin avtoritar sistem də düz 22 il bizə "oturun-qalxın!" deyəcəkdi!

Əslində o vaxt bunu məşq edirdik. Amma nədənsə adını Dirçəliş qoydular... Mən o günlərdə Meydanda çox şüarlar eşitdim. Fəqət, sonradan ağlıma gəldi ki, axı orada demokratiya ilə bağlı bircə şüar da səslənmədi. Bəlkə "dirçəlmiş" kütlə buna da ehtiyac duymurdu?..

Sonradan Z.Freydin kütlə psixologiyası ilə bağlı yazdıqlarını oxudum və o vaxt mənə elə gəldi ki, bütün bunları haradasa görmüşəm və haradasa bunların şahidi olmuşam...

Fəqət, tələsməyək. Gün gələcək və kütlə meydanlardan hökumət binalarına dolacaqdı. Yenə də ümid yaranacaqdı. Amma nahaq yerə. Heç bir il keçməyəcəkdi ki, o, öz yerini indiki avtoritar sistemə verəcəkdi. Bununla da "dirçəliş epopeyası" tamamlanacaqdı. Və biz on illərlə oturub-qalxacaqdıq. O səbəbdən o günlərdən böyük nəticələr çıxarmağın tərəfdarı deyiləm. Ona görə ki, hər şey daha sadə idi - biz gözəlcə idarə olunurduq. Hətta o qədər gözəl ki, özümüzün də bundan xoşumuz gəlirdi...

# Deputatın xahişini rədd edən yol polisini nə gözləyir?

**Azərbaycanda deputatlarla yol polisi əməkdaşları arasında ara-sıra gərginliklər yaşanır. Hətta vaxtilə Milli Məclisin plenar iclaslarında bəzi deputatlar bu barədə çıxış edib yol polisindən narazılıq da bildiriblər.**

## BDYPİ rəsmisi: "Deputat toxunulmazdır, ancaq..."




Məsələn, deputat Eldar İbrahimov avtomobilinin saxlanmasından hiddətlənərək polis əməkdaşı haqda demişdi: "Bu "dana", üzr istəyirəm, hardan gəlib? Bunları işə götürəndə təbliğat işi də aparılmalıdır. Bunlara bir başa salın ki, deputat, prezident, baş nazir kimdir".

Ötən gün isə mətbuatda xəbərlər yayıldı ki, deputat Rəfael Hüseynovun avtomobili yol polisi tərəfindən saxlanılıb və ona cərimə yazılıb. Sonradan o, mətbuata açıqlamasında bildirdi ki, yazılanlar doğru deyil, avtomobil onun yox, yaxın tanışınındır: "O, Hacıqabuldan gələrkən yol hərəkəti qaydasını pozduğu üçün polis tərəfindən saxlanılıb. Mən onunla əlaqə saxlayanda yol polisi tərəfindən saxlanıldığını bildirdi. Bundan sonra mən onların yanına gəldim. Bir daha bildirmək istəyirəm ki, yol polisi məni cərimələməyib. Həm də mənim nə xidməti, nə də şəxsi "Prado" markalı maşınım var", - deyə deputat qeyd edib.

Hadisə ilə bağlı yayılan videodan isə görünür ki, deputat polis əməkdaşına yaxınlaşır. Ancaq polis əməkdaşı yol hərəkəti qaydalarını pozan avtomobil sahibini cərimələməkdən vaz keçmir. Görəsən, deputatın xahişini rədd edən yol polisini nə gözləyir?

**Məsələ ilə bağlı qəzetimizə danışan Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev bildirdi ki, saxlanılan avtomobil deputata məxsus deyil:** "Başqa şəxsə aid avtomobildir. Qayda pozuntusu etdiyi üçün əməkdaş tərəfindən saxlanılıb. Sürücü barəsində də qanuna müvafiq olaraq tədbir görülüb. Burada əməkdaş qanunazidd olan heç bir addım atmayıb. Bununla bağlı hörmətli deputatımız da açıqlama verdi ki, həqiqətən elə bir avtomobili yoxdur. Eyni zamanda onu da qeyd edim ki, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci bəndində göstərilir ki, Milli Məclisin deputatları toxunulmaz olduqları üçün onların şəxsi və xidməti nəqliyyat vasitələrinin yoxlanılmasına və ya inzibati qaydada tutulmasına yol verilə bilməz. Ancaq bu o demək deyil ki, deputatın əyləşdiyi avtomobilin sürücüsü yol hərəkəti qaydalarını pozursa, onu inzibati məsuliyyətə cəlb etmək olmaz. Qanunvericilikdə belə bir müddəa yoxdur".

❑ Əli RAİS

# Astaranın təhsil şöbəsinin müdiri ittihamlara cavab verdi

## Qızbəs Məmmədova Ağahüseyn Yaqubovu onun tutdurmadığını deyir: "Bu adam tüfeylidir"




**Astara Rayon Təhsil Şöbəsinin müdiri Qızbəs Məmmədova rayonun Seləkəran rayon sakini Ağahüseyn Yaqubovun ittihamlarına cavab verib. Həmin cavabı olduğu kimi təqdim edirik.**

"Astara Rayon Təhsil Şöbəsi qəzetinizin son nömrələrindən birində dərc olunmuş "Astarada məktəb tikintisinə ayrılmış 1 milyon manat hara xərclənib", təhsil şöbəsinin müdirini məhkəməyə verən həbs olundu" sərlövhəli yazı ilə əlaqədar aşağıdakıları bildirir: Ağahüseyn Yaqubovun təhsil şöbəsinin müdirini məhkəməyə verilməsi faktı yalandır. Ağahüseyn Yaqubov Astara rayonunun Seləkəran kəndində yaşayır və tüfeyli həyat keçirir. Ağahüseyn Yaqubov 2005-ci il 30 mart, 2007-ci il 14 noyabr, 2008-ci il 30 iyul və 2011-ci il 20 yanvar tarixlərində müxtəlif vaxtlarda məhkəmələrin hökmü ilə azadlıqdan məhrum edilib. A.Yaqubov 2015-ci ilin oktyabr ayında yenidən həbs olunub. Onun həbsi səbəbi haqqında təhsil şöbəsinin məlumatı yoxdur. A.Yaqubovun həbsinin təhsil şöbəsi ilə heç bir əlaqəsi yoxdur. Məlumat üçün bildirmək istəyirik ki, 2015-ci ilin aprel ayının 12-də prezident cənab İlham Əliyev Astara rayonuna növbəti səfərindən sonra xüsusi sərəncam imzaladı. Həmin sərəncama əsasən Z.Bünyadov adına Astara şəhər 2 saylı tam orta məktəbinin binasının əsaslı təmiri üçün 2 milyon 500 min manat pul vəsaiti rayonun icra hakimiyyətinə ayırmışdır. Həmin vəsait tenderdə qalib olmuş tikinti təşkilatının hesabına köçürülüb. Həmin təşkilat məktəbin əsaslı təmirinə başlayıb. Onu da bildiririk ki, tikinti üçün ayrılmış vəsaitdən 1 milyon manat pulun mənimsənilməsi faktı yalan və böhtandır".

Müraciəti Astara Təhsil Şöbəsinin müdiri Qızbəs Məmmədova imzalayıb və A.Yaqubovun məhkum olunması haqda məhkəmələrin hökmlərini də əlavə edib.

Qeyd edək ki, bu ilin oktyabrında "Yeni Müsavat"ın redaksiyasına gələn A.Yaqubov demişdi ki, Astaranın təhsil şöbəsinin müdiri Qızbəs Məmmədova təhsil nazirinin verdiyi sərəncamları icra etmədən, müəllimlərin vakant yerlərinə işə götürülməsi üçün məktəb direktorları və müəllimləri işə götürmək üçün 5-6 min manat təyin edir. İldə də məktəb direktorları vəzifələrində dəyişdirilir, 6-7 min manat rüşvət alır. A.Yaqubov Z.Bünyadov adına Astara şəhər 2 saylı tam orta məktəbinin binasının əsaslı təmiri üçün prezidentin ayırdığı vəsaitin 1 milyon manatının mənimsənildiyini də iddia etmişdi. Yazı dərc olunandan sonra isə A.Yaqubov Astarada həbs olunub.

❑ E.HÜSEYNOV




# Böhtanda suçlanan baş redaktorun məhkəməsi keçirilib

**Dünən cenubnews.com saytının baş redaktor əvəzi (baş redaktor, hicab məhbusu Araz Quliyev qondarma ittihamlarla həbsdədir - red.) Mirələm Həşimova qarşı Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynovun iddiası əsasında ilkin məhkəmə iclası keçirilib. Musavat.com-un məlumatına görə, proses Masallı Rayon Məhkəməsində baş tutub.**

Xatırladaq ki, Rafil Hüseynov jurnalisti saytda getmiş 3 xəbərdə onun şərəf, ləyaqət və işgüzar nüfuzunu alçaltmaqda ittiham edir. İcra başçısı iddia ərizəsində jurnalistin xəbərləri təkzib etməsini və 5 min manat təzminat istəyir.

İclasda çıxış edən Mirələm Həşimov ona qarşı irəli sürülən ittihamları rədd edib: "İttihamda göstərilir ki, guya üç xəbərdə icra başçısı Rafil Hüseynovun şərəf və ləyaqətini alçaltmışam. Amma adıçəkilən "Masallı park bulvarını sel apardı" başlığı ilə yayımlanan məqalə-xəbərdə nəinki Rafil Hüseynov, heç kəs təhqir olunmayıb və "icra başçısı" sözü keçməyib. "Masallıda ağacları kəsirlər" başlığı ilə yayımlanan xəbərdə isə qeyd etmişik ki, "Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq". Əgər ağacların rəhbərlik tərəfindən kəsilməsi yalan idisə, onlar təkzib olaraq bizə müraciət etməli idilər. 5 ay keçib, amma təkzib verilməyib. "Rafil Hüseynov: işıq pulunu ödəyə bilmirsənsə get özünü öldür" başlığı ilə yayımlanan xəbərdə isə biz muxalifet.az saytına istinad etmişik və eyni xəbər bir çox saytlarda da dərc olunub. Biz «KİV haqqında» Qanuna uyğun olaraq istinad etmişik və istinad olunan xəbərin məsuliyyəti ilk yayımlanan mənbənin üzərindədir. Gördüyünüz kimi, hər üç xəbərdə qeyri-qanuni iş görməmişik".

Məhkəmədə icra başçısının nümayəndəsi fikirlərini və ittihamı müdafiə etməkdə çətinlik çəkib. Hakim Nemət Musayev növbəti məhkəmə iclasını dekabrın 1-i, saat 10:00-a təyin edib.

❑ NURLAN

# Hacı, məşədi, kərbəlayi titullarının yığışdırılması təklifinə reaksiya gəldi

**Bu günlərdə deputat Fazil Mustafa öz facebook statusunda hacı, məşədi, kərbəlayi kimi adların işlədilməsinin əleyhinə olduğunu qeyd edib. Onun fikrincə, bu cür titullar insanın gözünə soxmaq düzgün deyil və bu yığışdırılmalıdır.**

**Deputat yazıb:** "Kim haranı ziyarət edibsə, Allah qəbul etsin, bunu niyə titula çevirib başqasının gözünə soxurlar, izahını tapmaq mümkün deyil. Televiziyanı açırsan, gerizəkalı bir aparıcı üzünü müsahibinə tutub deyir ki, hacı, sizin bu məsələyə münasibətiniz necədir?" Fazil Mustafa onun bu mətnini İrandan idarə olunan cahil şəbəkənin söyüşlərlə paylaşdığını bildirib: "İrandan idarə olunan nadan, cahil şəbəkə nəyi doğru söyləmədiyimizi yazmağa qabiliyyətləri çatmadığına görə söyüşlər yağdıraraq bu mətni paylaşıblar. Onları bir şeydən əmin etmək istəyirəm ki, din pərdəsi altında ermənilərə dəstək verən saxta islam rejimi ilə Vətənini satmağa hazır sizlər kimi bütün şərəfsizlərə və Vətən xainlərinə qarşı qətiyyətli mübarizəmizi davam etdirəcəyik".

**F.Mustafanın bu təklifi Azərbaycan siyasətçiləri və dindarlar arasında da birmənalı qarşılanmayıb. Onun bu fikrinə münasibət bildirən AXP sədri Pənah Hüseyn insanların bu hüquqlarına müdaxilənin düzgün olmadığını bildirdi:** "Bu, davranış hüququdur və bu hüquqa müdaxilə etik deyil. Mən insanların bu titullardan istifadə edib-etməməsinin elə onların özlərinin ixtiyarına buraxılmasının tərəfdarıyam. Kim istəyir müraciət etsin, kim istəyir etməsin".

**ADP sədri Sərdar Cəlaloğlu isə bu cür titulların İslama aidiyyətinin olmadığını dedi:** "Kəlbəlayi, hacı, məşədi adları, sadəcə olaraq, bir insanın Allahın əmrlərini icra etməsini bildirmək üçün deyilir. Həcdən başqa İslam aləmində digər zəruri ziyarət yoxdur. Qəbiristanlıqların, din adamlarının, şəhidlərin ziyarəti qəbir ziyarətidir. Qəbir ziyarəti, xüsusən də Allah yolunda ölən adamların qəbrini ziyarət etmək bizim borcumuzdur. Ölüm Allahın sifətlərindən biri olduğuna görə ölənin hansı dindən olmasından asılı olmayaraq biz ölüyə hörmət etməliyik. Hansısa bir imamın qəbrini ziyarət edib ad almağın İslama heç bir aidiyyəti yoxdur. Yəni Qurani-Kərimdə kərbala, məşədi, hacı kimi adlar yoxdur. Bu, şiə təriqətinə xas adlardır. Məsələn, şiəliyin əsası Həzrəti Əlidən gəlir. Amma onun qəbrini ziyarət etsəniz, ad almazsınız. Yaxud Cəfəri təriqətinin banisi İmam Cəfərdir. Onun qəbrini 50 dəfə də ziyarət etsəniz, ad almayacaqsınız. İnsanlar yalnız İmam Rzanın və İmam Hüseynin qəbrini ziyarət edəndə ad alırlar. Əgər imamların qəbrini ziyarət etmək bir ad yaradırsa, niyə digər imamların qəbrini ziyarət etmək ad yaratmır?! Demək istəyirəm ki, bu adlar nə şiəliyin özündə, nə də başqa təriqətlərdə bir zərurət doğurmur. Mədinəyə gedib Peyğəmbərin qəbrini ziyarət edirsənsə və sənə ad düşmürsə, nəyə görə Xorasana gedəndə məşədi olursan?! Bax bunu başa düşmürəm. İmam Hüseyni başa düşmək olar ki, döyüşüb, fədakarlıq edib. Bəs İmam Rzanın ziyarəti niyə ad yaradır. Axı o vuruşmayıb, mühacirət edərək İranda yaşayıb. Burada anlaşılmazlıqlar var və müəyyən mənada açılmalıdır. Ona görə də mən kimin nə ad daşımasına elə də əhəmiyyət vermirəm. Kərbəla, məşədi və ya hacı olsun, fərq etməz. Bizim ümumi adımız müsəlmandır".



**Pənah Hüseyn: "Bu hüquqa müdaxilə etik deyil"**



**Sərdar Cəlaloğlu: "Dini nöqteyi-nəzərdən o adların heç bir mənası yoxdur"**

**S.Cəlaloğlu F.Mustafanın dediyi kimi, məsələnin inzibati qaydada həllini də doğru saymır:** "Fazil Mustafanın dediyi kimi bu titul məsələsini birdəfəlik aradan götürmək olmaz. Çünki insanlar o qəbirləri ziyarət edərkən bildirmək istəyirlər ki, həmin yerlə təmasları olub. Məsələn, kimsə deyir mən adımı qoyuram kərbəlayi. Bunu kitabda rəsmi yazdırmır. Bunu el arasında, dini baxımdan əzizləmə mənasında deyirlər. Həmin titulların heç biri ya kiməsə əlavə status, ya da hörmət gətirmir. Amma dini nöqteyi-nəzərdən o adların heç birinin mənası yoxdur. Cəmiyyət qadağa ilə idarə edilə bilməz, onun, sadəcə olaraq, mədəni, dini səviyyəsini qaldırmaq lazımdır. İnsanlar bilməlidir ki, hacı, kərbəlayi olmaqla dində hörmətli adam olmursan. Dində alim olanda, dini təbliğ edəndə hörmətli adam olursan. Ölkədə din elmi inkişaf etmir və geridə qalıb. Məsələn, biz müqəddəs sözünü harada gəldi işlədirik. Bu sözü yalnız Allah üçün işlədə bilərik. Hətta peyğəmbərə də müqəddəs deyə bilmərik. Dini yerlər deyə bilərik, müqəddəs yerlər yox. Əgər Allaha da, torpağa da, hansısa bir imama da müqəddəs deyiriksə, o zaman belə çıxır ki, biz Allaha şərik qoşuruq. Müqəddəs sözü Allahdan başqa heç bir varlığa münasibətdə işlədilə bilməz. Din ancaq yas mərasimləri və qəbiristanlıq fonunda təbliğ edilir. Dindarlara demək istəyirəm ki, məşədi və kərbəlayi məsələləri İslam dininin özündə çox anlaşılmaz bir məsələdir. Bilsinlər ki, bu ad almaq məsələsi dini yox, siyasi məsələdir. Bunu hamı başa düşməlidir".

❑ Günel MANAFLI

# Azərbaycanda məmurlar niyə gəlir deklorasiyası vermir?

## Ekspertlər çıxış yolunu hüquqi dövlətin qurulması və maliyyə amnistiyasında görürlər...



Müzəffər Baxış



Əlməmməd Nuriyev

**Son günlər "MTN işi" çərçivəsində aparılan həbslərdən sonra saxlanılan məmurların bahalı mülklərinin olduğu da ortaya çıxdı. İctimaiyyətdə yayılan fikirlərə görə, bu, yüksək çinli məmurların var-dövlətlərinin hələ gözlə görünən hissəsidir. Onların bu qədər var-dövləti necə qazandığı bəlli olmasa da, hər halda, həbs olunması bunun heç də qanuni yolla əldə edilmədiyini göstərir. Belə olan təqdirdə hər kəsin ağlına bir məsələ gəlir - korrupsiya.**

Prezident İlham Əliyev də çıxışlarında bildirir ki, Azərbaycanda korrupsiyanın qarşısı alınmalı, ölkənin iqtisadi inkişafı yüksək səviyyədə təmin olunmalıdır. Dünyanın əksər ölkələrində korrupsiyanın qarşısını almağın üsullarından biri isə gəlir deklorasiyasıdır.

Bəs Azərbaycanda məmurlar gəlir deklorasiyasına cəlb olunarsa, ölkədə rüşvətxorluq aradan qalxarmı?

**Konstitutsiya Araşdırmalar Fondunun prezidenti Əlməmməd Nuriyev bildirdi ki, bununla bağlı layihə işləyib Nazirlər Kabinetinə təqdim ediblər:**

"Öncə qeyd edim ki, "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi haqqında" Qanun 2005-ci ildə qəbul edilib. Qanunun icrası ilə bağlı ölkə prezidentinin fərmanında göstərilir ki, üç ay müddətində prezidentə gəlir deklorasiyasının forması və məzmunu təqdim edilsin. Bu hadisədən 10 il keçməsinə baxmayaraq, Nazirlər Kabineti hələ də həmin formanı hazırlayaraq təqdim etməyib. Bu məsələ həm də Azərbaycanın götürdüyü bir sıra öhdəliklərlə bağlıdır. Misal üçün, korrupsiyaya qarşı BMT-nin 2003-cü il konvensiyası Azərbaycan tərəfindən ratifikasiya olunub. Orada da gəlir deklorasiyanın təqdim edilməsi öhdəliklərdən biri kimi göstərilib. Eyni zamanda Azərbaycanda korrupsiyaya qarşı mübarizə ilə bağlı bir neçə fəaliyyət planının hər birində bunun hazırlanması və təqdim edilməsi ilə əlaqəli tədbirlər nəzərdə tutulub. Hətta bizim fondumuz tərəfindən də 2013-cü ildə bununla bağlı layihə hazırlanaraq Nazirlər Kabinetinə təqdim etdik. Nazirlər Kabinetindən bizə bildirildi ki, forma hazırlanan zaman təkliflərdən istifadə edəcəklər. Ancaq indiyədək xəbər yoxdur".

**Ə.Nuriyev gəlir deklorasiyasının tətbiqinin korrupsiyanın azalmasına gətirəcəyini düşünür:** "Desək ki, bütün problemin səbəbi gəlir deklorasiyasının olmamasıdır, bu da doğru olmaz. Ancaq deklorasiyanın vəzifəli şəxslər tərəfindən verilməsi onların mütəmadi olaraq gəlirlərinin leqal izlənməsi üçün şərait yarada bilər. İkinci tərəfdən isə əgər şəxsin gəlirlərini izləyən zaman çox böyük miqdarda vəsaitlər meydana çıxarsa, bunun qanuni olub-olmadığı anında yoxlanıla bilər. Belə hal, eyni zamanda gələcəkdə korrupsiya işi ilə bağlı aparılan cinayət işləri üçün sübut kimi də istifadə oluna bilər. Gəlir deklorasiyası vəzifəli şəxslərin qanunsuz gəlir əldə etməsinin qarşısını almaq üçün böyük alətdir. Aparılan tədqiqatlar göstərir ki, hansı ölkədə gəlir deklorasiyası təqdim olunur, orada korrupsiya daha aşağı səviyyədədir".

**Ekspert Azərbaycanda gəlir deklorasiyasının nə üçün verilməməsi ilə bağlı aşağıdakıları söylədi:** "Öncəliklə yuxarıda qeyd etdiyim kimi, hələ lazımı sənədlər hazırlanmayıb. İkincisi isə bizdə hazırkı situasiyada gəlir deklorasiyasının təqdim edilməsi çoxsaylı suallar yarada bilər. Ona görə də bunu sürətləndirmək və leqallaşdırmaq üçün maliyyə amnistiyası haqqında qanun qəbul edilməlidir. Nəticədə ölkəyə əlavə vəsait gətirilər. Əgər bu addım atılarsa, o zaman gəlir deklorasiyasının da təqdim edilməsində hər hansı problem olmaz".

**Hüquqşünas Müzəffər Baxışa görə isə ölkədə korrupsiyanın qarşısını almaq üçün hüquq dövləti qurulmalıdır:** "Hüquq dövləti olmadan Azərbaycanda gəlir deklorasiyasının olub-olmamasının heç bir fərqi yoxdur. Hüquqi dövlət quruculuğu yönündə isə heç bir tədbir görülmür. Heç kim çalışmır ki, hər şey qanunla tənzimlənsin və bütün insanlar buna uyğun yaşasınlar. Deklorasiya formal xarakterli bir şeydir. Azərbaycan cəmiyyəti çox şəffafdır. Burada kimin hansı işlə məşğul olduğu açıq şəkildə görünür və bu hər kəsə bəllidir. Yəni on ildir görmürdülər ki, misal üçün, Milli Təhlükəsizlik Nazirliyində bu kimi qeyri-qanuni işlər aparılır? Bu baxımdan da hesab edirəm ki, Azərbaycanda qanunsuzluqların qarşısını almaq qeyri-mümkündür".

❑ Əli RAİS

**İş adamı Maqsud Mahmudov "Azəriqazbank"a 2009-cu ildə qızıl-brilyantları girov qoymaqla bankdan 1 milyon manata yaxın kredit götürüb. 2 illik kredit müddətinin bitməsinə bir neçə ay qalmış "Azəriqazbank"a çağırılıb: "Pulu vaxtında ödəyirdim, gecikmə olmurdu. Mən sizin qəzetin saytında bankın zərgər-qiymətləndiricisinə qulaq asdım. O düz deyir. 2011-ci ildə mənə xəbər verirlər ki, sizin malları (banka girov qoyulmuş qızıl-brilyantları nəzərdə tutur- E.M.) baş ofisə aparıblar. Səbəbini mənə izah etmirlər. Dedilər ki, MTN apardı. Bankın işçisi mənə zəng edir, deyir ki, malları ora aparıblar.**

# "Mənim brilyant qaşlarım niyə Eldar Mahmudovun balonundan çıxmalıdır?"

## İş adamı Maqsud Mahmudovun başına gətirilən film kimi hekayə...

Bir müddət sonra məni bankın zərgəri yığdı. Dedi ki, orada malları açıblar. Mənim nümayəndəm İlham Əsədov ora gedəndə artıq malları açıb töküblər ortalığa. Ona görə orada iştirakdan imtina edir. Arif Piriyev bankın zərgəridir. O görür ki, malları açırlar, yaxın durmur. Arifi aparırlar MTN-ə. Ona deyirlər ki, de ki, bu qaşlar şüşədir. O da deyir ki, mən necə deyə bilərəm ki, o qaşlar şüşədir? Arif bunu demir. Sürücümü MTN-ə aparıb döyürlər. Mən bankın baş ofisinə gedib məsələni aydınlaşdırmaq istədim. Oradan çıxandan sonra tutub MTN-ə apardılar. Orada Füzuli adlı işçi deyir ki, ticarətçisən. Məni soyub buraxırlar".

**M.Mahmudov deyir ki, 2009-cu ildə banka girov kimi təqdim etdiyi brilyantlar şüşə ilə əvəzlənərək özünə qaytarılıb. Onun özünə isə hədə-qorxu gəlinib. Buna görə də Eldar Mahmudov vəzifədə olduğu illərdə şikayət etməyib. Bu il noyabrın 13-də "Azəriqazbank"ın İdarə Heyətinin sədrinə teleqram vurub və ona şüşə ilə əvəzlənən brilyantların geri qaytarılmasını tələb edib:** "Arif Piriyev də dediklərimi təsdiqləyir. Hamı bilir ki, Çingiz Əsədullayev Eldar Mahmudovla şərikdir. Tək mən deyiləm, mənim kimi yüzlərlə adam var. Mənim itirəcəyim bir şey qalmayıb, hər şeyim əlimdən gedib. "Azəriqazbank"dan Rizvan adlı şəxs zəng edib deyir ki, qaşların qiyməti nə qədərdir. Mən də dedim ki, mənə pul lazım deyil. Mənim brilyant qaşlarım niyə Eldar Mahmudovun balonundan çıxmalıdır? Mətbuatda gedir ki, Eldar Mahmudovun evindən balonlarla brilyant çıxıb. Həmin o qaşlardır, mənim kimilərin əlindən alınan qaşlardır. Şər atırıq? 2012-ci ildə Çingiz Əsədullayevə müraciət etmişəm. Teleqram vurmuşam. İndinin söhbəti deyil. Mən haqqımı tələb edirəm".




1 ay əvvəl vəzifəsindən uzaqlaşdırılan milli təhlükəsizlik naziri Eldar Mahmudovun ölkəyə idxal olunan digər mallarla yanaşı, qızıl və brilyantın inhisarçısı olması haqda illərdir ki, məlumatlar dolaşırdı. O, tutduğu postdan uzaqlaşdırılandan sonra mətbuatda bu məlumatları təsdiqləyən ifadələr yayıldı. Qızıl və brilyant biznesi ilə məşğul olan iş adamları Milli Təhlükəsizlik Nazirliyinə aparılaraq başlarına açılan oyunları dilə gətirməyə başladılar. Məlum oldu ki, nazirin razılığı ilə qaş-daş sektoruna bu və ya digər formada aidiyyəti olan hər kəs "mahmudovçu"ların diqqət mərkəzində olub. İş adamları ən müxtəlif adlar altında MTN-ə aparılıb, onlardan şantaj yolu ilə böyük məbləğdə pullar alınıb. Belə şəxslərdən biri də iş adamı Maqsud Mahmudov olub. MTN-ə dəvət edilən iş adamından "mahmudovçu"lar şantaj yolu ilə 250 min dollar aldıqları haqda məlumat vermişdik. İndi məlum olur ki, M.Mahmudovdan alınan təkcə bu məbləğ olmayıb. Onu Eldar Mahmudovun qudası Çingiz Əsədullayevə məxsus "Azəriqazbank"a girov qoyduğu qızıl-zinət əşyalarına görə də MTN-ə aparıb başına oyun açıblar. M.Mahmudovun banka girov kimi qoyduğu 5 karatlıq brilyant qaş şüşə qaşla əvəzlənib. Bu əməldən şikayətçi olan iş adamı "mahmudovçu"lar tərəfindən saxlanıb, ondan 30 min manat alıblar, özünü də şikayətçi olmamasını "tövsiyə" etməklə azad buraxıblar. "Azəriqazbank"ın qiymətləndirici-zərgəri Arif Piriyev "Yeni Müsavat"a müsahibəsində M.Mahmudovun girov qoyduğu brilyantların həqiqi olduğunu söyləyib. O, bankda baş verənlərdən sonra oradan uzaqlaşdığını da videomüsahibəsində deyib. Həmin videomüsahibə ilə https://www.youtube.com/watch?v=jQWJz_0vYw4 keçidində tanış ola bilərsiniz.

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Son həbslərə ən çox sevinənlər...

## Əvəz Zeynallı: "Yaxşı kamera 2000 manat, mobil telefon 5000 manat..."

**Son aylar yüksək vəzifə və rütbəli məmurların, nazirliklərin iri ranqlı şəxslərinin həbs edilməsi cəmiyyətdə rezonans doğurub. MTN-dən başlayan "təmizləmə" əməliyyatı Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə qədər uzanarkən, mətbuatda bir çox başqa nazirlərin də adı "vəzifədən gedəcəklər" siyahısında hallanır. Milyonlarla manat dövlət vəsaitini mənimsəyərək, ölkənin ən varlı adamlarına çevrilən bu şəxslərin həbsi cəmiyyətdə də müzakirələrə səbəb olub. İnsanlar arasında yayılan söhbətlərdən biri də odur ki, "milyonçu"ların həbsə düşməsi ən çox həbsxana nəzarətçilərini sevindirir. Onlar bu varlı adamları, necə deyərlər, "yolurlar".**

Bir neçə il həbsxana həyatı yaşayan **"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı** "Yeni Müsavat"a bildirdi ki, məmurların və iş adamlarının həbs olunması cəzaçəkmə müəssisələrində ümumi nəzarətçi kütləsinin sevincinə səbəb olur: "Penitensiar Xidmətin işçiləri ələbaxandırlar. Ancaq onları qınamaq olmaz. Çünki ayda 450 manat əmək haqqı alırlar. Təqsirləndirilən şəxslərə xidmət edirək nəsə qazanmağa çalışırlar. Bir-iki manat qazanmaq üçün onlar üçün çörək, siqaret alıb gətirirlər. Maaşın az olması bizim Penitensiar Xidmət işçilərini ələbaxan edib. Təbii ki, varlı şəxslərin həbs olunması sıravi bir "nadzor" kütləsi üçün sevincli hadisədir. Rejim rəisləri, nəzarətçilər,



Əvəz Zeynallı



Tural Abbaslı

görüşə, "peredaça"ya baxanlar hamısı sevinirlər".

**Əvəz Zeynallı bu məsələdə jurnalistlərə, siyasi məhbuslara, vicdan məhbuslarına münasibətin fərqli olduğunu vurğuladı:** "Cəzaçəkmə müəssisələrinin rəhbərləri belə bizə qarşı ehtiyatlı davranırdı. Heç bir müəssisə rəisi adının mətbuatda hallanmasını istəməz. Hətta nəzarətçilərə belə tapşırıq verirdilər ki, jurnalistlərlə ehtiyatlı olun ki, pul məsələsini bilməsinlər".

**Əvəz Zeynallı cəzaçəkmə müəssisələrində kameraların belə satıldığını dedi:** "Kürdəxanıda 5-ci korpusun 1-ci mərtəbəsinin adı "rəisin korpusu" kimi adlanır. Burada bütün otaqlar pulludur. 1-ci mərtəbədən bayır göründüyü üçün bu kameraların qiyməti də bahadır. Digər mərtəbələrdə isə yalnız səma görünür. Bu isə kameraların qiymətlərində özünü göstərir. Bundan əlavə, yaxşı şəraitli otaqlar var. Tək adamlıq otaqlar da var. Qiymətlər 300 manatdan başlayaraq 2000 manatadək dəyişir. Bildiyimə görə, Akif Çovdarovun işçilərindən bir nəfər onunla qalır. Xidmətçi kimi götürüb onu yanına. Yeməyini bişirəcək, paltarlarını yuyacaq. Ümumiyyətlə, bu kimi işləri görənlər hamısı pul müqabilində xidmət göstərirlər. Mobil telefon belə gəzdirmək olur. Qanunla qadağan olunsa da, pulunu verib gəzdirə bilirlər. Kürdəxanıda mobil telefon üçün 5000 manat pul verib işlədə bilərsən. Qanun şəhər telefonu ilə həftədə 2 dəfə danışmağa imkan verir. Lakin pulun varsa, gündə 5 dəfə telefonla danışa bilərsən. Cəzaçəkmə müəssisələrində əsas faktor puldur, o da ki, yeni həbs olunanlarda yeşik-yeşik var".

**Keçmiş siyasi məhbus, "AĞ blok"un təsisçisi Tural Abbaslı da cəzaçəkmə müəssisələrində çalışanların son həbslərdən sevinəcəyini bildirdi:** "Cəzaçəkmə müəssisələrinin qapalı məkan olması rüşvət üçün əsas faktordur. Müəssisə rəhbərliyi dəyişsə belə, bu hallara rast gəlmək olar. Mənim olduğum müəssisələrdə bu, çox da nəzərə çarpmırdı. İstənilən halda onların çöldə qazandıqlarını içəridə xərcləməsi prosesi var. Bu isə məcburi qaydada olmur. Əsasən rahat həyata öyrəşmiş şəxslər azacıq çətinlik görəndə özlərinə şərait yaratmağa başlayırlar. Bu səbəbdən də xüsusi xidmətlər üçün pul verməli olurlar. Ümumiyyətlə, əgər rahat yaşamaq istəyirsənsə, ləvazimatdan tutmuş, ən adi şeylərə qədər pul verməlisən. Birmənalı olaraq, bu kimi hallar cəzaçəkmə müəssisələrində var. Dustaqlar ümumi kazarmada qalırdılar. Kimin imkanı varsa, 3-4 nəfərlik otaqlara keçirlər. Onları qınamaq da olmaz. Çünki cəzaçəkmə müəssisələrində infeksion xəstəlik baş alıb gedir. Şəraitin bərbad vəziyyətdə olması onları pul verib nisbətən təmiz şəraitdə olan kameraya getməyə məcbur edir".

❑ **Məğrur SALMANOV**

YENİ MÜSAVAT
N 257 (6285) 19 noyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Türk generalından Azərbaycanın düşmənlərinə mesaj

"Güclü olmaq üçün birlikdə olmalıyıq"; "Qarabağ qardaş ölkənin də əsas problemlərindən olaraq qalır"; **rusiyalı politoloq:** "Putin İŞİD-lə mübarizəyə dəstək qarşılığında Qərbdən postsovet məkanı üçün "lisenziya" alsa, Qarabağ məsələsi Kremldən daha asılı duruma düşəcək..."

**Bu həftə Azərbaycanın əsas problemi - Dağlıq Qarabağ problemi və erməni işğalı iki mötəbər beynəlxalq tədbir çərçivəsində prezident İlham Əliyev tərəfindən dünyanın diqqətinə gətirildi. Onlardan biri "Böyük iyirmilər"in (G20) Antalya sammiti idisə, digəri UNESCO-nun Paris sessiyası oldu.**



Andrey Piontkovski

"Azərbaycan müstəqilliyinin ilk illərində erməni işğalının qurbanı olub". Bunu İlham Əliyev Parisdə UNESCO baş konfransının 38-ci sessiyasının Liderlər Forumunda çıxışı zamanı deyib. Prezident sözünə davam edərək bildirib: "Azərbaycan torpaqlarının işğalı bu gün da davam edir. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin nəticəsi olaraq 1 milyondan çox sakin qaçqın və məcburi köçkünə çevrilib. 250 min azərbaycanlı Ermənistandan deportasiya olunub, 750 min azərbaycanlı öz ölkəsində məcburi köçkünə çevrilib".

**Ölkə başçısı Ermənistanın təkcə beynəlxalq hüququn norma və prinsiplərini yox, tarixi ədaləti də pozduğunu vurğulayıb:** "BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. Bu qətnamələr Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüf ki, 20 il keçib, amma qətnamələr yerinə yetirilməyib. Burada biz beynəlxalq arenada qlobal təhlükəsizliyin çox vacib bir məsələsi ilə üzləşirik. Beynəlxalq ictimaiyyətin qəbul etdiyi qərar və qətnamələr rədd edilir və buna görə cəza verilmir. Danışıqlar masasında irəliləyiş yoxdur. Çünki Ermənistan sülh istəmir. Onlar bacardıqları qədər işğal siyasətini davam etdirmək niyyətindədirlər. Amma zaman bizim xeyrimizədir. Mən əminəm ki, Azərbaycan bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü bərpa edəcək. Azərbaycanın ərazi bütövlüyü dünyanın istənilən ölkəsinin ərazi bütövlüyü kimi qiymətlidir".

***

Azərbaycanın pozulmuş hüququna və ərazi bütövlüyünə laqeydlik sövq-təbii onu öz hərbi gücünü artırmaq və müttəfiqləri hərbi-strateji əlaqələri dərinləşdirmək zorunda qoyur. Bu sırada isə NATO üzvü qardaş Türkiyə 1-ci yerdə gəlir. Nə xoş ki, Qarabağ konflikti qardaş ölkənin də əsas problemlərindən biri olaraq qalır.

Məsələ də ondadır ki, "Bir millətin iki dövləti" arasında bütün sahələr üzrə ildən-ilə genişlənən əməkdaşlıq, müttəfiqlik münasibətləri Azərbaycan ərazilərinin nə vaxtsa qaytarılacağına əsas zəmanətlərdən biri və birincisi, eyni zamanda Azərbaycana (türk) düşmənlərinə qarşı bölgədə əsas çəkindirici amildir. Bunu Türkiyə Quru Qoşunları komandanı, ordu generalı Salih Zeki Çolakın Bakı səfəri bir daha nümayiş etdirdi.

**Türk general Bakıda müdafiə naziri Zakir Həsənovla təkbətək və geniş tərkibdə görüş keçirib. Müdafiə naziri ölkələrimiz arasında hərbi əməkdaşlığın ikitərəfli və NATO çərçivəsində aparıldığını, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu vurğulayıb. Az öncə Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisinin Azərbaycana səmərəli səfərini xatırladan müdafiə naziri son illər ölkələrimizin həm Quru Qoşunları, həm də Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini xüsusi qeyd edib.**

"Fəaliyyətlərimiz dövlət başçılarının dəstəyi, hərbi qurumlar arasında razılığa və təsdiq edilmiş illik əməkdaşlıq planlarına əsasən sürətlə davam etdirilərək daha da genişləndiriləcək. Bu iş bütün sahələrdən olan mütəxəssislərin cəlb olunması ilə, Silahlı Qüvvələrin ehtiyac və tələbləri nəzərə alınmaqla mərhələli şəkildə davam edəcək", - deyə nazir qeyd edib.

**Tutduğu vəzifədə ilk xarici səfərini Azərbaycana etməsindən məmnunluq hissi ilə danışan ordu generalı S.Çolak dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq ənənələrinə əsaslandığı və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu vurğulayıb:** "Tarixi dərindən öyrənərək bundan nəticə çıxarmalı, güclü olmaq üçün birlikdə olmalıyıq. Əməkdaşlığımız hər iki ölkənin Silahlı Qüvvələrinə təcrübə və fayda verməlidir".

Sonra regiondakı hərbi-siyasi vəziyyət, Azərbaycanla Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin inkişaf perspektivləri, hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq imkanları və digər maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

***

Ancaq Bakı-Ankara əlaqələri nə qədər yüksək səviyyədə olsa da Qarabağ probleminin həllinə Rusiya faktoru hələ ki əsas əngəl olaraq qalır. Ukrayna (Donbas, Krım) böhranı və İŞİD terroru isə Kremlin Dağlıq Qarabağ ixtilafına yanaşmasına özünəməxsus çalarlar qatmaqdadır.

**Bu xüsusda tanınmış rusiyalı politoloq Andrey Piontkovski Rusiyanın Ukrayna siyasəti ilə bağlı olan və özündə Qarabağ məsələsinə də təsirləri daşıyan maraqlı açıqlama verib. Onun fikrincə, prezident Vladimir Putin Qərb ölkələrini inandırmağa çalışır ki, İŞİD təhdidləri fonunda Ukraynaya dair bütün fikir ayrılıqları unudulsun:** "Putin BMT Baş Məclisinin yubiley toplantısında baş tutmayan cəhdini təzədən edir. Söhbət İŞİD-lə mübarizədə özünü Qərbə vacib müttəfiq kimi satmağın qarşılığında postsovet məkanının, o cümlədən Ukraynanın idarə edilməsinə ondan lisenziya tələb eləməkdən gedir".

**Yəni faktiki surətdə Moskva yeni terror təhlükəsini bəhanə edib Qərblə bazarlığa cəhd edir. Politoloqun sözlərinə görə, Rusiya təbliğatı Paris faciəsindən cəmi bir neçə saat sonra "anti-İŞİD koalisiyası" bayrağı altında misli görünməmiş və həyasız hücum kampaniyasına başlayıb.**

"Ancaq mən hesab edirəm ki, Putinin bu arzuları reallaşmayacaq. Ağ Evin rəsmi açıqlamasında da xüsusi vurğulanır ki, G20 çərçivəsində Obama ilə Putin arasında keçirilmiş görüşdə Ukrayna məsələsi də müzakirə olunub və prezident Barak Obama Ukraynaya dair Minsk anlaşmasının bütünlüklə həyata keçirilməsini, ilk növbədə də Donbasdan Rusiya qoşunlarının çıxarılmasını tələb edib", - deyə ekspert vurğulayıb və onu da əlavə edib ki, "Putinsiz İŞİD-lə haqq-hesab çəkmək daha asandır, nəinki ayağa dolaşan Putin və Əsədlə".

***

Təkcə İŞİD-ləmi? Problem ondadır ki, Kreml Qarabağ məsələsində də neytrallıq göstərsə, "əl-ayağa dolaşmasa" o zaman postsovet məkanının ən üzücü konflikti dərhal tarixin arxivinə verilər.

## Erməni işğalı Azərbaycana 818 milyard dollar ziyan vurub

**Ermənistanın işğalı nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üzrə işçi qrupu "Silahlı erməni təcavüzü: itki və tələfatlarımız" mövzusunda hesabatın təqdimatını keçirib.**

Mətbuatın açıqlamasına görə, öncə ermənilərin törətdikləri vəhşilikləri, qətliamları və talanları əks etdirən sənədli film nümayiş etdirilib. İşçi qrupun sədri Xanhüseyn Kazımlı deyib ki, qrupun apardığı işdə əsas məqsəd torpaqlar işğaldan azad edildikdən sonra işğalçıdan dəymiş ziyanın ödənilməsi, kompensasiya tələb edilməsi, bu məsələnin beynəlxalq səviyyədə qaldırılmasıdır.

Qeyd edilib ki, qrupun indiyədək apardığı hesablama nəticəsində Azərbaycan torpaqlarının işğalı nəticəsində əhaliyə 147,80 milyard, dövlətə 126,46 milyard dollar ziyan vurulub. Təbii sərvətlərə, maddi irsə və digər sahələrə dəyən ziyan da əlavə edilərsə, ümumilikdə Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində ölkəyə 818, 88 milyard dollar ziyan dəyib.

İşçi qrup dəymiş ziyanın hesablanması istiqamətində işi davam etdirir.



# Azərbaycana avtomobil idxalı 2 dəfədən çox azalıb

**Bu ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana 24 219 ədəd avtomobil idxal edilib. "Report" Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, ötən ilin analoji dövrü ilə müqayisədə bu avtomobillərin sayı 27 867 ədəd, yaxud 2 dəfədən çox azalıb.**

Hesabat dövründə 21 497 ədəd minik avtomobili və digər motorlu nəqliyyat vasitələri idxal olunub ki, bu da ötən ilin müvafiq dövründən 2,2 dəfə az olub.

Bu ilin yanvar-oktyabr aylarında 757 ədəd sürücü daxil olmaqla, 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələri idxal olunub ki, bu da ötən ildən 487 ədəd, yaxud 2,8 dəfə çoxdur.

Hesabat dövründə idxal olunan yük daşımaq üçün motorlu nəqliyyat vasitələrinin sayı 1 750 ədəd, xüsusi təyinatlı motorlu nəqliyyat vasitələrinin sayı 215 ədəd təşkil edib. Yük maşınlarının idxalı ötən ilin müvafiq dövründən 2 375 ədəd, yaxud 2,3 dəfə, xüsusi təyinatlı motorlu nəqliyyat vasitələrinin sayı 97 ədəd və ya 31% az olub.

# Rusiyada axtarışda olan iki nəfər Azərbaycanda tutulub

**Rusiya Federasiyası tərəfindən axtarışda olan iki nəfər Azərbaycanda tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Goranboy Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Rusiya Cinayət Məcəlləsinin 105-ci (qəsdən adam öldürmə) maddəsi ilə axtarışda olan Hacı Qurbanov saxlanılıb.**

Bundan başqa, Bakı şəhər sakini Pərizad Əzizova 2013-cü ilin fevral ayında paytaxt sakini Eldar Behbudovun onun etimadını qazanıb 5200 manatını alması barədə Yasamal polisinə müraciət edib. Araşdırma zamanı E. Behbudovun Rusiya Cinayət Məcəlləsinin 159-cu (dələduzluq) maddəsi ilə axtarışda olması müəyyən edilib. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində E. Behbudov tutulub.

# Fəhlə 6-cı mərtəbədən yıxılıb öldü

**Bakıda fəhlə faciəli şəkildə ölüb. Nərimanov rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə noyabrın 17-də Nərimanov rayonunun M.Əlizadə küçəsində qeydə alınıb. Həmin küçədə yerləşən 9 mərtəbəli binada fəhlə işləyən Füzuli rayon sakini Malik Nəcəfov 6-cı mərtəbədən yıxılaraq ölüb. Faktla bağlı araşdırma aparılır.**

# Bakıda holdinq rəhbəri tutuldu



**Bakıda dələduzluq etdiyinə görə axtarışa verilmiş şəxs tutulub. Lent.az Bakı Şəhər Baş Polis İdarəsinə istinadən xəbər verir ki, Nərimanov RPİ 18-ci PB əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində AR CM-in 178-ci (dələduzluq) maddəsi ilə axtarışda olan 1949-cu il təvəllüdlü Müstəcəb Səfərov tutulub.**

Qeyd edək ki, bu ilin fevralında Baş Prokurorluq Müstəcəb Səfərovun qanunsuz hərəkətləri ilə bağlı məlumat yayıb. Məlumatda qeyd edilib ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində M.Səfərov barəsində cinayət işi açılıb. İstintaq zamanı Müstəcəb Səfərovun "İqtisadi Əlaqələr" Holdinqinin rəhbəri vəzifəsində işləyərkən qulluq mövqeyindən sui-istifadə edərək Bakı şəhərində inşa edilmiş çoxmərtəbəli binada birotaqlı mənzili adı açıqlanmayan Bakı sakininin adına rəsmiləşdirəcəyini yalandan vəd etdiyi üzə çıxıb.

M.Səfərov bundan başqa, Quba rayonunda su və kanalizasiya xətlərinin çəkilməsi ilə bağlı tenderi "REK Holdinq"ə satacağını, habelə özünü Fövqəladə Hallar Nazirliyinin əməkdaşı kimi təqdim edərək Zaqatala rayonunda zəlzələdən qəzalı vəziyyətə düşmüş evlərin təmiri işini "Hüseyn-T" şirkətinə həvalə etdirəcəyini yalandan vəd edərək ümumilikdə 61 min 500 manat məbləğində özgə əmlakını dələduzluq yolu ilə ələ keçirib.

Bu faktlara görə ona Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərinin mənimsəmə) maddələri ilə ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

İstintaq dövründə vurulmuş ziyanın bir hissəsinin ödətdirilməsi təmin edilib.

Cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Arvadından boşanan kişi qayınanasını döydü

**Bakıda keçmiş kürəkən qayınanasının evinə basqın edib. Milli.az-ın verdiyi xəbərə görə, hadisə Binəqədi rayonunda baş verib. Bir müddət öncə arvadından boşanan Sumqayıt şəhər sakini, 1985-ci il təvəllüdlü Rəfail Əliyev F.Şahbazov küçəsində yaşayan keçmiş qayınanası, 1975-ci il təvəllüdlü Yasəmən Əhmədovanın evinə basqın edib. R.Əliyev evə daxil olaraq qapını sındırıb, qayınanasını döyüb. Sonra isə ailə üzvlərini söyüb təhqir edərək onları öldürəcəyini deyib.**

Faktla bağlı araşdırma aparılır.

# Dələduz "general" axtarışa verilib




**Bakıda "general" ləqəbli dələduz axtarışa verilib. Suraxanı Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, 1954-cü il təvəllüdlü Manaf Bala oğlu Nadirov Cinayət Məcəlləsinin 178.2.4-cü (dələduzluq - xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə təqsirləndirilir. O, xeyli sayda vətəndaşın etimadını qazanaraq 100 min manatdan artıq mənimsəməyə yol verib.**

Polisdən həmçinin bildirilib ki, M. Nadirov Bakıda "general" ləqəbi ilə tanınır.

Hazırda onn tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Bakıda yağış yağacaq

**Noyabrın 19-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu, səhər bəzi yerlərdə çiskinli olacağı, arabir tutulacağı, günün ikinci yarısında isə yağış yağacağı gözlənilir. Gündüz cənub-qərb küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 7-9, gündüz 12-15, Bakıda gecə 7-9, gündüz 12-14 dərəcə isti olacaq.**

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı, şərq rayonlarında yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9, gündüz 12-16 dərəcə isti, dağlarda gecə 4 dərəcə şaxtadan 1 dərəcəyədək isti, gündüz 6-11 dərəcə isti olacaq.

# Xaçmazda yanında silah olan meyit tapılıb

**Xaçmaz rayonunun Baraxum kənd sakininin meyiti öz bağında tapılıb. "Report"un xəbərinə görə, Elçin Arzumanov adlı şəxsin meyiti tapılarkən yanında tüfəng də olub. Hadisə yerinə Xaçmaz Rayon Prokurorluğunun əməkdaşları gəlib. Onun intihar etdiyi ehtimal olunur. Ölümün dəqiq səbəbləri araşdırmalardan sonra məlum olacaq.**



## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**






# «Bakcell» Ordubadda yeni satış və xidmət mərkəzi açıb

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti öz xidmət və məhsullarını abunəçilərə daha yaxın etmək məqsədilə regionlarda satış və xidmət mərkəzlərinin şəbəkəsini genişləndirməyə davam edir.**

**Şirkət Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində yeni konsept və dizaynda olan satış və xidmət mərkəzinin açılışını edib. Ordubad şəhəri, Heydər Əliyev küçəsi 35 ünvanında yerləşən yeni məntəqədə abunəçilərə müxtəlif çeşiddə xidmətlər təqdim olunur.**

**"İndi Ordubad sakinləri «Bakcell» şirkətinin təqdim etdiyi məhsul və xidmətlərdən daha asanlıqla faydalana biləcəklər. Azərbaycanda ən geniş əhatə dairəsi olan və ən etibarlı şəbəkəyə malik «Bakcell» şirkəti öz xidmətlərinin abunəçilərə daha əlçatan olması üçün satış və xidmət mərkəzlərinin şəbəkəsini genişləndirməyə davam edəcək", - deyə «Bakcell» şirkətinin pərakəndə satış və distribyusiya departamentinin rəhbəri Paşa Paşayev bildirib.**

**«Bakcell» şirkəti 250-yə yaxın pərakəndə satış nöqtəsi və paytaxt və bölgələrdə fəaliyyət göstərən 26 müştəri xidməti mərkəzində öz abunəçilərinə ən üstün müştəri xidməti göstərir. «Bakcell» müştəri xidmətləri mərkəzləri haqqında məlumat almaq üçün bu linkə daxil olun: http://www.bakcell.com/az/contact-us/customer-care-offices**




# "Nar" sərfəli internet paketləri təklif etməyə davam edir

"Günlük" paketinə qoşulan abunəçilər artıq daha çox - 30 MB internet trafiki əldə edirlər

**"Nar" abunəçilərinin sərfəli internet istifadəsini təmin edən və dəyəri cəmi 0.10 AZN təşkil edən "Günlük" paketinin həcmi artırılaraq 20 MB əvəzinə 30 MB oldu. Xidməti 777 qısa nömrəsinə "gunluk" açar sözünü göndərməklə, *777#12#Yes şifrəsini yığmaqla, eləcə də "Şəxsi kabinet" və ya "eNəzarət" vasitəsilə aktivləşdirmək mümkündür.**

**"Günlük" paketi əvvəllər mobil internetdən istifadə etməmiş abunəçilər üçün mükəmməl başlanğıcdır.**

**Daim öz şəbəkəsinin mükəmməlləşdirilməsi üzərində çalışan "Nar", davamlı təkmilləşmə və müştəri yönümlülük dəyərlərini əldə rəhbər tutaraq, öz istifadəçilərinə sərfəli internet paketləri təklif etməyə davam edir. "Nar" müxtəlif müştəri kateqoriyaları üçün ən əlverişli təkliflər irəli sürməsi, şəffaf hesablama sistemini təmin etməsi və balansa nəzarət mexanizmini asanlaşdırması ilə fərqlənir.**

**"Nar" internet paketləri haqqında əlavə məlumatı mobil operatorun veb-səhifəsindən əldə edə bilərsiniz: https://www.nar.az/**



## Elan

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır. Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi 050 264 49 99**

YENİ MÜSAVAT
N 257 (6285) 19 noyabr 2015

# Təyyarələr üçün yerdəki təhlükələr...

## Terrorçulara harada yaşıl işıq yandırılır?

**Rusiya Federal Xidmət Bürosu Misirdə Rusiyaya məxsus təyyarə qəzası ilə bağlı məlumat yayıb. FXB rəhbəri Aleksandr Bortnikov A321 təyyarəsinə əldə hazırlanan bomba yerləşdirildiyini bildirib. Ekspertlər təyyarənin qalıqları arasından partlayıcının izlərini aşkar ediblər.**

Rusiya prezidenti Vladimir Putin də təyyarənin terror aktı nəticəsində qəzaya düşdüyünü təsdiqləyib: "Rusiya ilk dəfə deyil ki, heç bir səbəb olmadan terror aktları ilə üzləşir".

Putinin sözlərinə görə, A321 təyyarəsinin göyərtəsində terror aktı törədilməsinə dair xəbərlərin fonunda Suriyada terrorçuların mövqelərinə aviazərbələrin intensivliyi gücləndirilməlidir: "Bizim Suriyada hərbi əməliyyatlarımız nəinki davam etdirilməlidir, hətta o dərəcə gücləndirilməlidir ki, cinayətkarlar qisasdan qaçmağın mümkün olmadığını anlasınlar".

Xatırladaq ki, oktyabrın 31-də Şarm-əl-Şeyx - Sankt-Peterburq reysi ilə uçan A321 təyyarəsi havaya qalxdıqdan 23 dəqiqə sonra qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 217 sərnişin və 7 ekipaj üzvünün hamısı həlak olub. Qəzadan dərhal sonra İŞİD yaraqlıları hadisəyə görə məsuliyyəti öz üzərinə götürmüşdülər.

ABŞ və Britaniya kəşfiyyatının peykdən istifadə olunmaqla həyata keçirdiyi birgə əməliyyat nəticəsində təyyarəyə bombanın Misirin Şarm-əl-Şeyx aeroportunun baqaj və ya yerüstü xidmətində işləyən İŞİD üzvünün keçirdiyi təxmin edilir.

Kəşfiyyat əməliyyatı noyabrın 4-də keçirilib və terrorçular arasında elektron yazışmalar peyk kommunikasiyaları ilə qeydə alınıb.

Məlum olub ki, terrorçular öz aralarında Şarm-əl-Şeyx aeroportunun hansısa işçisinin uçuşdan az əvvəl təyyarənin baqaj bölməsinə içərisində partlayıcı qurğu olan çantanı yerləşdirdiyi haqda danışıblar.

Bu əməliyyatdan bir neçə saat sonra Britaniya XİN rəsmən elan edib ki, təyyarənin qəzaya uğramasının səbəbi bomba partlayışı ola bilər. Habelə Böyük Britaniya hava yolları şirkətləri Şarm-əl-Şeyxə bütün reysləri dayandırıb.

Bu məqamda diqqəti çəkən əsas məqam təyyarələrin təhlükəsizliyi məsələsində bu cür özünü göstərən boşluqlardır. İnsan bu kimi hallarda qosqoca aviakampaniyaların, hava limanlarının təhlükəsizlik qaydalarına demək olar ki, önəm vermədiyini düşünür.

Əslində isə durum necədir?

"The Times" qəzetinin yazdığına görə, Britaniya XİN Misirin Şarm-əl-Şeyx şəhəri aeroportunda təhlükəsizlik səviyyəsinin çox aşağı olduğu barədə Qahirəni hələ 10 ay əvvəl xəbərdar edib.




Lakin Misir tərəfi təhlükəsizliyi gücləndirmək üçün yetərli tədbirlər görməyib. Britaniya hökuməti şübhələnir ki, aeroportun əməkdaşları arasında İŞİD-ə üzv olan, yaxud bu terror qruplaşmasına simpatiya bəsləyənlər var. Bu səbəbdən aeroportun əməkdaşlarının bioqrafiyasını Britaniya tərəfinə vermək tələb olunub.

Bildirilir ki, Şarm-əl-Şeyx aeroportundan istifadə edən xarici turistlər təhlükəsizlik tədbirlərinin çox bərbad olduğunu, baqajların bəzən heç bir yoxlama aparılmadan buraxıldığını, habelə aeroport əməkdaşları arasında rüşvətin geniş yayıldığını deyirlər.

Aeroportların təhlükəsizliyi Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (International Air Transport Association - IATA) tələb və qaydaları ilə təmin edilir. Onların böyük hissəsi texniki, inzibati, rabitə sistemi və personalın hazırlığı kimi məsələləri əhatə edir. Bundan əlavə, hər bir ölkə təhlükəsizlik üzrə qanunvericilik bazası və tənzimləyici akt və sənədlərə malikdir. Bu tələblərə uyğun olaraq Rusiyada hava limanları ətrafında 50 metrlik bufer zonaları, aeroport girişində nəzarət və metal detektorları kimi əlavə təhlükəsizlik tədbirləri görülür.

"Hazırda rast gəldiyimiz təhlükəsizlik tədbirlərinin hamısı, üzərində artıq yığılmış və yaxud da yığılmayan partlayıcı maddə olan, intiharçının göyərtəyə çıxmasının qarşısının alınmasına yönəlib", - aviasiya üzrə ekspert, "Sukhoi" şirkətinin sabiqkonstruktoru Vadim Lukaşeviç deyir. (BBC)

"Misal üçün, biz qeydiyyatdan keçib, baqajı təhvil verdikdən sonra artıq uçuşdan qala bilmərik. Reys yubadılacaq, baqaj çıxarılacaq. Bütün sistem bunun üzərində qurulub".

Təyyarə uçuşa müxtəlif aeroport xidmətləri tərəfindən hazırlanarkən onun ayaqyolu təmizlənir, sərnişinlər salonu səliqəyə salınır və baqaj yerləşdirilir.

"Bu məqamda təyyarəyə adam daxil ola bilər", - Likaşeviç deyir.

Onun sözlərinə görə, müəyyən texniki biliyi olan şəxs təyyarə yaxın düşdükdən sonra bombanı qoymaq imkanına malikdir. "Təyyarənin salonuna heyət - onun bayırında və baqaj xidmətindəki işlərə isə aeroport xidməti nəzarət edir". Bunu Mülki Aviasiyanın "Aeroport" Assosiasiyasının baş direktoru Viktor Qorbaçev deyir.

Onun sözlərinə görə, aeroportun texniki işçilərini təhlükəsizlik xidməti yoxlayır, onlar təlimləndirilir. Viktor Qorbaçov deyir ki, bu riski tam aradan qaldırmır, onu yalnız azaldır.

**Ekspert Şarm əl-Şeyx aeroportunun direktorunun vəzifəsindən azad olunması məlumatını şərh edib.**

"Demək ki, onların yoxlamaları artıq nəyisə üzə çıxarıb. Bu ya bilavasitə diversiyaya işarə edən faktlardı, ya da ki təhlükəsizliklə bağlı elə bir qüsurdur ki, onu qəbuledilməz sayaraq rəisi işdən azad ediblər".

❑ **Sevinc TELMANQIZI**



# Tikinti şirkətindən dövlət başçısına şikayət edildi

## "Altı yüzə yaxın fəhlə yeddi aydır pulunu ala bilmir..."

**Ölkənin böyük tikinti şirkətlərindən biri olan "Azimport"un fəhlələri dövlət başçısı İlham Əliyevə müraciət ediblər. Müraciətin redaksiyamıza göndərilən nüsxəsində bildirilir ki, 600-ə yaxın fəhlə yeddi aya yaxındır ki, gördüyü işin pulunu ala bilmir. Otuza yaxın fəhlənin yazdığı məktubda bildirilir ki, bu ilin mart ayından şirkətdə işləyiblər və üç ay ərzində gördükləri işin puluna görə aylardır şirkətin qapısını döyürlər.**

""Azimport" şirkəti ilə danışığımıza əsasən Bayıl qəsəbəsi, "Şanxay" deyilən ərazidə evlərin ağardılması və dam örtüklərinin boyanması işlərinə başladıq. Bizə dedilər ki, əmək müqaviləsi bağlayacaqlar. Bizim işçi qrupumuzda 540 nəfər çalışıb. Dam örtüyünün bir kvadratını 60 qəpiyə, divarları 30 qəpiyə işləməyə razılaşdıq. Biz işin ciddiliyini nəzərə alıb iki ay müddətinə, yeni mart və aprel aylarında çalışıb işi başa vurduq. Şirkətin rəhbəri Azər Əsgərov və onun nümayəndələri bizə çatan əmək haqqının bir hissəsini ödədilər. Sonradan bildik ki, onlar bizi aldadıblar və əmək müqaviləsi də bağlamayıblar. O vaxtdan 6 ay keçir, hələ də pulumuzu ala bilmirik. Deyirlər ki, "Gedin, pulunuzu prezidentdən tələb edin. Sizin pullar Avropa oyunlarına xərcləndi". Biz şirkətin qarşısında dəfələrlə polis zorakılığına məruz qalmışıq. Şirkətin rəhbərlərindən Azər Əsgərov bizi "zibil tör-töküntüləri" adlandıraraq şirkətin qarşısında işçimizi döyüb və təhqir edib. Biz dəfələrlə Prezident Administrasiyasında, Dövlət Neft Şirkətində, Baş Prokurorluqda olmuşuq, heç bir nəticəsi olmayıb",- deyə məktubda bildirilir.

**Dövlət başçısına edilən müraciətdə vurğulanır ki, yüzlərlə ailə çətin durumda qalaraq, pulların ala bilməmələri ucbatından banklara da borclanıblar:** "Bizim hamımızın ailəsi, uşağı var, Bakıda kirayə qalırıq. Kirayə pulunu verə bilmədiyi üçün çox işçilərimiz küçələrdə qalıb. Çoxumuzun bank kreditləri var. Çox acınacaqlı bir duruma düşmüşük. Bizə kömək etməyinizi xahiş edirik".

Qeyd edək ki, "Azimport" MMC tikinti şirkəti bazarda 2004-cü ildən fəaliyyət göstərir və ölkənin ən böyük tikinti şirkətlərindən olduğu bildirilir. Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.

❑ **RÖYA**

# "Laçın"da əl dəyişməyəcək...

## Maqsud Vəliyevin vəfatından sonra bazara onun qardaşının rəhbərlik edəcəyi gözlənilir

**"Laçın" ticarət mərkəzinin sahibinin vəfat etməsi haqda məlumat vermişdik. Bazarın sahibi "Laçınlı Maqsud" kimi tanınan Maqsud Vəliyevin uzun müddətdir əziyyət çəkdiyi şəkər xəstəliyindən dünyasını dəyişdiyi deyilir.**

M.Vəliyevin vəfat xəbəri noyabrın 17-də bazarda çalışan sahibkarlara səhər saatlarında verilib. Dəfn mərasimində iştirak edən sahibkarlar mağazaları açmayıblar.

Ticarət mərkəzinin dünən də işləməyəcəyi deyilirdi. Lakin bazar açılıb. Musavat.com-un əməkdaşı ticarət mərkəzində olub.

Saat 11:00 radələrində bazarın mağazalarının bir çoxu açılmışdı. Mağaza sahibləri əvvəlki kimi işlərini davam etdirirdilər. Lakin sahibkarlar bundan sonra onları gözləyən proseslərdən narahatdırlar.

Bazar rəhbərliyinə kimin gələcəyi ilə bağlı suallar hələ ki cavabsız qalıb. Qeyd edək ki,





bazar artıq ikinci dəfədir rəhbər dəyişir.

Bazarın ilk sahibi Yusif Vəliyev olub. Y.Vəliyev vəfat etdikdən sonra bazara rəhbərliyi ortancıl qardaş olan Maqsud Vəliyev edib. Vəliyevlər 3 qardaş olub. Bazara bu dəfə sonuncu qardaşın rəhbərlik edəcəyi gözlənilir.

Bazarda sahibkarlarla söhbətimiz zamanı məlum oldu ki, onlar yeni rəhbər gəldikdən sonra müəyyən dəyişikliklərin olacağını gözləyirlər. Necə ki, Maqsud Vəliyev bazara rəhbər gələndən sonra olduğu kimi.

Qeyd edək ki, bazarın adı bir neçə dəfə mətbuatda qalmaqallı məsələlərdə hallanıb. Sonuncu dəfə M.Vəliyev DYP və icra hakimiyyətinin nümayəndələri ilə bazarın qarşısındakı boş ərazidə parkomat quraşdırılması məsələsinə görə üz-üzə gəlmişdi. M.Vəliyev parkomat quraşdırılmasına razılıq vermədiyi üçün bir neçə gün ərazidə gərginlik yaşanmışdı. Nəhayət, bazar rəhbərliyi ilə icra hakimiyyəti arasındakı danışıqdan sonra parkomat məsələsi M.Vəliyevin xeyrinə həll olundu.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
Son səhifə
N 257 (6285) 19 noyabr 2015

# Pişik ölkənin qəhrəmanı oldu

İsveçdə sahibəsini yanğından xilas edən Nalle adlı pişik qəhrəman elan edilib. Bu barədə lenta.ru saytı xəbər yayıb. Xəbərə görə, ev heyvanı bu titula ölkənin milli kanalı olan SVT-dəki axşam şousunda layiq görülüb. Pişik Karlskrun şəhərində yaşayan 23 yaşlı sahibəsi Anni Narvefoşu sonuncunun telefonu tüstülənməyə başlayan kimi oyadıb. Qız danışır ki, yuxudan ayılan kimi yanmış plastik qoxusunu duyub və təzəcə başlamış yanğının qarşısını alıb. Baş vermiş son olaydan sonra pişik İsveçdə sosial şəbəkənin sevimlisi olub, kanal SVT Nalleyə təltifnamə, mükafat, eləcə də hədiyyələr təqdim edib.



Pişiyin sahibəsi Anni isə deyib ki, baş vermiş yanğından sonra gecələr telefonu nu şarja taxmağa qorxur. 23 yaşlı gənc yaşlılara qulluq etməklə dolandığını deyib. İsveçlinin dediyinə görə, pasiyentlərindən çoxu pişiyinin bu hərəkəti barədə mediadan xəbər tutub və telekanallardan da onu izləyiblər.



# Santa Klausun qucağında oturmaq 50 dollardır

Nyu Cersi ştatındakı Çerri Hill şəhərindəki eyniadlı ticarət mərkəzində çalışan Santa Klaus bütün ölkəni təəccübləndirib. Belə ki, o, hər uşaqla şəkil və ya video çəkdirmək üçün onların valideynlərindən 35-50 dollar məbləğində pul alır. Bu barədə qərarı isə ticarət mərkəzi rəhbərliyi verib. Xidmət "Santaya səyahət" uşaq proqramı komplektinə daxildir.

Bir çox valideynlər isə məlum ödəmənin "bayramın ruhu"na mənfi təsir göstərəcəyi qənaətindədir. Onlar bildiriblər ki, Santa Klausla şəkil tarifləri aşağı təminatlı ailələrin imkanı xaricindədir. Maraqlıdır ki, pul ödəməyən valideynlərin uşaqları hətta Santa Klausu görmək imkanından məhrum edilib. 2 uşaq anası Elza Anzide deyib ki, Santa özünü və üzünü onlardan necə gizlədibsə, uşaqlar ona heç pulsuz baxa da bilməzlər. O deyib ki, bəzi ticarət mərkəzlərində Santa ilə şəklə görə pul ödənilib. Buna baxmayaraq, uşaqlar pulsuz Santanın dizində oturub öz yeni il arzuları barədə danışa bilirdilər.

Cherry Hill Mall təmsilçiləri isə deyiblər ki, ötən il sözügedən xidmət pulsuz idi. Amma ciddi insan axını, bu xidmətin populyarlığı onu bu ildən ödənişli etmələrinə səbəb olub.

# Bu robot uşaq üçün ata funksiyasını daşıyır

Disney şirkəti topu tullamağı bacaran robotlar istehsal edib. Bu, uşaqların diqqətindən yayınıb özünə vaxt ayırmaqda valideynlərə kömək göstərən androiddir. Söhbət robotqayırma sahəsində yenilikdən gedir. Əlbəttə, hazırda insanı, məsələn, uşaq üçün valideyni tamamilə əvəz edə bilən robotlar var. Lakin məşhur şirkət bu sahədə bir az da irəliləyərək uşaqlarla və yeniyetmələrlə populyar "topu at" oyununu oynaya bilən android yaradıb.

Yeni robot topu sizə atır və siz onu geri tullayanda, robot onu tapıb qeydə alır və tutur. Robot Kinect texnologiyasından istifadə edir və düz ona atılan əşyanın trayektoriyasını izləyir, beləliklə, topu bir əli ilə tuta bilir. Robot topu tutanda öz əlinə baxır. O, çox diqqətlidir: digər oyunçunun hərəkət istiqamətini izləmək üçün xüsusi qurğusu vardır. Buna görə də o, həmişə üzünü oyundakı tərəfdaşına çevirir.





# Toy günü gəlini gördü, evlənməkdən vaz keçdi

Səudiyyə Ərəbistanı sakini toy mərasimində ilk dəfə gəlinin sifətini görəndən sonra evlənməkdən vaz keçib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən yayıb. Həmin günə qədər cütlük ümumiyyətlə heç görüşməyib. Onların toyu isə qohumları tərəfindən təşkil olunub. Mərasim ölkənin qərbində yerləşən Mədinə şəhərində baş tutub. Toy şəkli çəkdirən vaxt gəlin niqabını açıb və bəy onu görərək şoka girib: "Siz mən təsəvvür etdiyim qız deyilsiniz". Bundan sonra kişi özü üçün dəqiqləşdirib ki, onunla evlənməyə hazırlaşmır. Gəlin bu sözdən şoka girərək yıxılıb, onda isterika başlayıb. Hadisə sosial şəbəkələrdə ciddi etiraza səbəb olub. İnsanlar kişinin bu hərəkətini məsuliyyətsizlik və qədirbilməzlik kimi qiymətləndirib. İstifadəçilərdən biri "o kişi başa düşməli idi ki, gözəllik xarakterdədir, üzdə yox".




QOÇ - Qarşılıqlı münasibətlərdə uğurlu gedişlər edəcəyiniz gözlənilir. Bu, gələcək işləriniz üçün dönüş ola bilər. Şəxsi büdcənizi artırmaq üçün əhəmiyyətli görüşləriniz də mümkündür.

BUĞA - Əsəblərinizi sakitləşdirmək, daxili harmoniyanızı bərpa etmək üçün bütün gücünüzü səfərbər edin. İnsanları özünüzdən uzaqlaşdıran addımlar atmayın. Vaxtınızı sevgiyə sərf edin.

ƏKİZLƏR - Tərəddüdlərinizi dəf etmək üçün təcrübəli adamlarla məsləhətləşmələr aparın. Bu gün pul məsələlərini, uzaq səfərləri təxirə salın. Ailə-sevgi münasibətlərini arxa plana keçirməyin.

XƏRÇƏNG - Qohumluq müstəvisində qərəzli addımlara yol verməyin. Əks təqdirdə, təklənə bilərsiniz. Mərhəmətli olun və çalışın ki, rəğbət qazanasınız. Yersiz tələbkarlığınızı minimuma endirin.

ŞİR - Müqəddəs hədəfləriniz var, amma onlara yetişmək üçün lazımi addımlar ata bilmirsiniz. Məhz bu proqnozu oxuduğunuz andan etibarən hərəkətə keçin, Tanrı yardımçınız olar, inşallah.

QIZ - Qarşınızda böyük işlər durur. Onların öhdəsindən gəlmək üçün daxili sabitliyinizi bərpa etməlisiniz. İşgüzar görüşlərinizi intensivləşdirin. Yaşca böyük doğmalarınızın qayğısına qalın.

TƏRƏZİ - Öhdəliklərinizi çoxaldığından bu təqvimi bir qədər yorğun şəkildə başa vuracaqsınız. Amma nəticənin səmərəsini göz önünə gətirib təmkinli olmalısınız. Axşam maraqlı görüşlər gözlənilir.

ƏQRƏB - Nə qədər ki, öz bürcünüz "hakimdir", ətrafınızda layiqli tərəfdaşlar toplamağa çalışın. Bu, perspektivlərinizə yetişməkdə xeyli irəliləyiş yarada bilər. Təşəbbüskarlığı əldə saxlayın.

OXATAN - Həyatınızın həssas məqamı yetişməkdədir. Hər addımı ölçülü-biçili atın ki, uduzmayasınız. Hər şeydən öncə qarşılıqlı münasibətlərə fikir verin. Məsuliyyətinizi hiss edin.

OĞLAQ - Maraqlı bir gün yaşayacaqsınız. Əgər dinə, adət-ənənəyə zidd hərəkətlərə yol verməsəniz, ovqatınız yüksək olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şansınız olacaq.

SUTÖKƏN - Axşam saatlarına qədər bəd enerjili Ay bürcünüzdə olduğundan qida rasionunuza qeyri-ənənəvi təamlar əlavə etməyin. Nahardan sonra maraqlı adamlarla görüşləriniz mümkündür.

BALIQLAR - Özünüzdə yarımçıq işlər bol olduğu halda, başqalarına əlavə problemlər yaratmayın. Quranda deyildiyi kimi, ya xeyirxah söz deyin, ya da susun... Bütün bunlar düşünməyiniz üçündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Gün ərzində telefona neçə dəfə baxmaq olar?



İsveçli alimlər sübut edib ki, son illər insanların telefon asılılığı xəstəlik həddinə çatıb. Belə ki, hətta yemək zamanı belə telefonu əlindən yerə qoymayan insanlar var. Alimlər son bir il ərzində müxtəlif sosial təbəqədən olan 600-ə yaxın insan üzərində təcrübə keçirib. Məlum olub ki, gündəlik iş rejimində insanlar gün ərzində 60 dəfə telefona baxırlarsa, bu, artıq telefon xəstəliyinin əlamətidir. 60 dəfə baxış isə təkcə zəng və mesajları təqib etmə mənasını vermir. İnsanlar heç bir səbəb olmadan, heç bir bəhanəsiz telefonlarına baxır. Ya keçmiş mesajlara nəzər salır, ya gələn telefon zənglərinin saatına. Bundan başqa, rəyi soruşulan insanların çoxu telefonuna zəng və SMS gəlməyən zaman stress keçirir, aparatın xarab olmasından şübhələnir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300